Bu bir xalq qəzetidi
ƏDALƏT

# Mehriban Əliyeva Boğaziçi sammitinə dəvət olundu



**"Dekabrda İstanbulda Boğaziçi sammiti keçiriləcək. Həmin tədbirə fəxri qonaq kimi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da dəvət edilib".**

Adalet.az xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın mərkəzi qərargahında keçirilən "Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolu" adlı konfransda çıxışı zamanı deyib.

YAP sədrinin müavini bildirib ki, onu da həmin tədbirdə iştirak etməyə dəvət ediblər.

"Eyni zamanda Mehriban Əliyeva Boğaziçi sammitinin açılış sessiyasında da çıxış edəcək", - o vurğulayıb.

# Zəngilanda radio və televiziya yayımı təmin olunub



**Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərmanının icrası ilə əlaqədar işğaldan azad olunmuş ərazilərdə infrastrukturun, o cümlədən radio-televiziya yayım stansiyalarının işinin bərpası istiqamətində işlər davam etdirilir.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən Adalet.az-a verilən məlumata görə, işğaldan azad olunmuş ərazilərdə radio-televiziya yayımlarının bərpası ilə bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi (Teleradio İB) tərəfindən Zəngilan rayonunun Mincivan qəsəbəsində yerləşən Mincivan Radio-Televiziya Yayım Stansiyasının mövcud 30 metrlik qülləsindən istifadə olunmaqla 8 TV və 2 radio proqramının Zəngilan şəhəri və Zəngilan rayonunun 10-dan artıq kəndində yayımı təmin olunub. Buna qədər isə Şuşa Radio-Televiziya Yayım Stansiyasında müvafiq avadanlıqlar quraşdırılaraq 31 dekabr 2020-ci il tarixindən etibarən radio-televiziya yayımı Şuşa, Xankəndi şəhərləri və Xocalı, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrində bərpa edilib. Həmçinin 04.10.2021-ci il tarixində Kəlbəcər şəhərində 17 metrlik yeni metal qüllə və müvafiq yayım avadanlıqları qurularaq istismara verilməklə Kəlbəcər şəhəri və rayonun ətraf 15 kəndində 8 TV və 1 radio proqramının yayımı təmin olunub. Hazırda işğaldan azad olunan digər ərazilərdə radio və televiziya yayımlarının bərpası istiqamətində işlər davam etdirilir. O cümlədən Xocavənd rayonunun Hadrut qəsəbəsinin Şahyeri kəndi ərazisində yerləşən Şahyeri stansiyasının işinin cari ilin sonunadək bərpası nəzərdə tutulur.

Sonda xatırladaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində rabitə xidmətlərinin təşkilinə dair Fəaliyyət Proqramı"na uyğun olaraq azad olunmuş ərazilərdə digər istiqamətlərdə də işlər davam etdirilir.

# DTX rəisi ilə BQXK-nin vitse-prezidenti arasında görüş keçirilib



**Oktyabrın 19-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) vitse-prezidenti Jil Karbonyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib..**

Adalet.az DTX-nın rəsmi saytına istinadən xəbər verir ki, görüşdə BQXK ilə ölkəmiz arasında mövcud əlaqələr, təşkilatın humanitar missiyasının həyata keçirilməsi ilə bağlı qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunub.

General-polkovnik Əli Nağıyev Birinci və İkinci Qarabağ müharibələrində itkin düşən vətəndaşlarımızın tapılması məsələsinə toxunaraq BQKX-nin bu istiqamətdə bundan sonra da fəal rol oynayacağına və mühüm töhfələr verəcəyinə ümidvar olduğunu bildirmişdir. Həmçinin regionda hökm sürən yeni reallıqlar nəzərə alınmaqla BQKX-nin nümayəndələrinin Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında olan bölgələrə səfərlərinin Ermənistanın deyil, yalnız respublikamızın ərazisindən istifadə edilməklə mümkünlüyü nəzərə çatdırılıb.

Bundan əlavə, söhbət əsnasında Yaxın Şərq bölgəsindən, xüsusən də Suriya və İraqdan Azərbaycan əsilli vətəndaşların və onların ailə üzvlərinin ölkəyə qaytarılması mövzusu da geniş müzakirə olunub.

BQKX-nin vitse-prezidenti Jil Karbonye Azərbaycan hökuməti ilə faydalı əməkdaşlıq münasibətlərindən məmnunluğunu ifadə etmiş, qeyd olunan məsələlərin həlli istiqamətində birgə səmərəli fəaliyyətin davam edəcəyinə əminliyini bildirib.

# SEVİNC OSMANQIZI, ARTIQ DÜNYA İLHAM ƏLİYEVİN AYAĞINA GƏLİR



**Deməli, Sevinc Osmanqızı belə bir video paylaşıb və Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan prezidentini müqayisə edib. Və bildirir ki, Nikol Paşinyan son zamanlar neçə ölkəyə səfər edib və hansı dövlətin başçıları ilə görüşüb. Onu da qeyd edir ki, Azərbaycan prezidenti İlham Əliyev həmin müddətdə cəmi iki dəfə səfər edib, o da Rusiyaya.**

Sevinc Osmanqızı, Nikol Paşinyan düşüb İran, Gürcüstan, Avropa ölkələrinə və sair və ilaxır, hamıdan dəstək və nəsə dilənir. Çünki məğlub bir ölkənin məğlub bir lideridi. Və təbii ki, müəyyən tula payı da alır.

Amma bu 44 günlük müharibədə böyük bir zəfər qazanmış ordunun komandanı oturub evində, kimlərsə, hansısa ölkənin baş nazirləri və məsul şəxsləri onun qarşısına gəlir, özü də xahişə və minnətə.

Qaldı Rusiyaya səfərləri, məlum 10 noyabr Bəyannaməsinə imza atan üçüncü dövlət Rusiyadır, ona görə də Rusiya ilə təmaslarını daha da artırır ki, həmin Bəyannamədəki və yaxud bəyanatdakı məsələlər həll edilsin.

Və o da həll ediləcək. Söhbət Zəngəzur dəhlizindən və dəmiryol dəhlizindən gedir. Və əgər Ermənistan buna razılaşmasa Dəmir yumruq yerindədi.

**Və biləsən ki, artıq dünya Azərbaycan prezidentinin ayağına gəlir və bizim prezidentin kiminsə yanına getməyə ehtiyacı yoxdur.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 90 (5922) 21 oktyabr 2021-ci il
Qiyməti 30 qəpik

# İNAM KƏRİMOV, "AQROİNFO" ADINDA QƏZET OLMAZ

**Deməli, dəfələrlə yazmışam, yenə yazıram, vaxtilə "Sovet kəndi" adında qəzet vardı. Məlum məsələdi, Sovet dağıldı, amma kənd dağılmadı axı. Və bu qəzetin adı iki-üç dəfə dəyişdi - "Həyat" oldu, "Bərəkət" oldu və sair və ilaxır.**

Bu gün də kənd durur. Möhtərəm Prezident elə təkcə Füzulidə Dövlətyarlı kəndində Ağıllı kəndin təməlini qoyub. Yəni bu kəndə ətrafdakı 4 kənd birləşdirilib, yeni bir layihə həyata keçirirlər.

Hörmətli cənab nazir İnam Kərimov, biz yazdıq, siz də qəbul etdiniz. "Sovet kəndi"nin nəşrinə şərait yaratdınız. İndi adını dəyişib qoyublar "Aqroinfo". Dünyada bu adda qəzet mövcud ola bilməz. Bu qəzet 99 il fəaliyyət göstərib. Necə ki, bu gün "Xalq" qəzeti kimi. İndi sadəcə olaraq "Sovet" sözünü çıxarıb onu "Kənd" qəzeti adlandıra bilərsiniz. Bu qəzet kəndlilərin ən sevimli qəzeti ola bilər. Həm onları təbliğ edər, həm təşviq edər, həm də onlara maarifçilik dərsi keçər.

İndi bu qəzeti öldürməklə kəndlilərin sevimli bir qəzeti ölür.

Hörmətli İnam Kərimov!

Həm də istəyirsinizsə əkinçilikdə nəyəsə nail olasınız bu qəzeti saxlamaqla nail ola bilərsiniz.

**Qalanı sizin işinizdir. Və o qədər də böyük xərc tələb etmir, təxminən 3 pambıqyığan maşına ayırdığınız vəsait bu qəzetin həftəlik çıxmasına bəs edər.**

**Hörmətlə:**
**"Sovet kəndi"nin vaxtilə**
**şöbə müdiri işləmiş Aqil ABBAS**

# Azərbaycan minatəmizləmə avadanlıqları alıb

**"Məmnunluq hissi ilə onu qeyd etmək istəyərdim ki, artıq Xorvatiya Respublikası ilə minatəmizləmə sahəsində əməli işlər həyata keçirilir".**

**Bunu xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan Xorvatiyanın xarici və Avropa işləri üzrə naziri Qordan Grliç Radmanla birgə keçirdiyi mətbuat konfransında deyib.**

**"Xorvatiyadan müvafiq avadanlıqlar sifariş edilir və onlar Azərbaycana çatdırılır. Bu sahədə mövcud təcrübələrdən faydalanmaq məsələləri ilə bağlı fikir mübadiləsi həyata keçirdik", - o bildirib.**



# Elman Rüstəmov: "Bu strategiya 2030-cu ilə qədər hesablanıb"



**"Azərbaycanda post-pandemiya, postneft və post-konflikt dövrünün çağrışlarını nəzərə alan ölkə prezidenti 5 milli prioritet müəyyənləşdirib".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmov bildirib.

"Bu günlərdə hökumət və AMB yeni milli inkişaf strategiyası müəyyən edib. Bu strategiya 2030-cu ilə qədər hesablanıb. Onun 1-ci mərhələsi 2022-2026-cı illəri əhatə edəcək. Bu strategiyanın əsas elementləri iqtisadi artım, iqtisadi şəffaflıq, şaxələnmə, yaşıl iqtisadiyyat, ətraf mühit, inkluzivlik və digər dünyada baş verən ən müasir proseslərə cavab olaraq müəyyənləşdirilib. Strategiyada ən mühüm istiqamətlərdən biri bütövlükdə iqtisadiyyatın şaxələndirilməsidir, dövlət investisiyalarının özəl investisiyalarla əvəz edilməsidir.

Burda bank sektorunun üzərinə olduqca böyük məsuliyyət düşür, sektorun qarşısında olduqca böyük çağırışlar var", - deyə o, qeyd edib.

# Şuşada Molla Pənah Vaqifin büstü qoyuldu



*Dahi Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşa şəhərində yerləşən büstü Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulub.*

*Adalet.az xəbər verir ki, abidə Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında yenidən hazırlanıb. Bürüncdən hazırlanan büst əvvəlki yerinə qaytarılaraq Molla Pənah Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb.*

# MİLLƏT TARİF ŞURASINA DUA EDİR

**Deməli, xalqımızın sevimli Tarif Şurası qazın və enerjinin qiymətini təxminən 2 qəpik artırıb. Söhbət kubmetrdən gedir. Millət sevinc içindədir. Hamı Tarif Şurasının üzvlərinə və rəhbərlərinə dua oxuyur. Məsələn, istəsəydilər lap 20 qəpik artırsaydılar da nə olacaqdı ki? Təbii ki, heç nə.**

İmkan olduqca millətin bu "dualarını" daha çox qazanın.

Amma qorxuram ki, bir gün qiymətləri o qədər artırasınız ki, özünüz partlayasınız və millət də başlasın sizə yas tutmağa.

Yaşasın Tarif Şurası! Nə yaxşı varsınız!

# "Kişi ev işlərinə görə qadına pul ödəsin"

**"Həyatımızın müxtəlif sahələrində qadınlara qarşı zorakılıqlar qalmaqdadır". Adalet.az APA-ya istinadən bildirir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolu" mövzusunda keçirilən konfransda deyilib.**

Komitə sədri bildirib ki, ÜST-ün məlumatına görə, dünyada hər üç qadından 1-i ya evdə, ya işdə zorakılığa məruz qalır: "Bu gün işsiz qadınlar 57,5 % təşkil edir. Baxmayaraq ki, əmək qabiliyyətli qadınların sayı kişilərin sayından çoxdur. Əsas diskriminasiya burada qadın əməyinin kişi əməyinə nisbətən az qiymətləndirilməsidir. Bu, bütün dünyada belədir. Azərbaycanda qadınların əməyi kişi əməyindən daha az qiymətləndirilir. Bunun bünövrəsi iqtisadi azadlıqdadır. Əgər iqtisadi azadlıq olmayacaqsa, biz sosial azadlığı da təmin edə bilməyəcəyik. Ev işlərinin, ailə üzvlərinə qulluqla bağlı haqqı ödənilməyən iş saatlarının 77%-i qadınların payına düşür. Bu haqqı zəhmət çəkib kişi ödəməlidir. Çünki əgər evdə qadın olmasa, kişi bu işi görmək üçün kimisə tutmalıdır. Elmi-texniki fəaliyyət sahəsində qadınların əməkhaqqısı kişilərin əməkhaqqısının yalnız 47%-ni təşkil edir. Səhiyyə və sosial xidmətlər sahəsində bu rəqəm 63%-dir. Baxmayaraq ki, bu sahədə qadınlar kişilərdən daha çoxdur. Qadın sahibkarlar sayında da rəqəm aşağıdır. Sahibkar qadınların sayı sahibkar kişilərin sayından 3,7 dəfə azdır". YAP sədrinin müavini- Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov isə Musa Quliyevin ev işi görən qadınlara pul ödənməsi fikri ilə razılaşmayıb. T. Budaqov bildirib ki, Azərbaycan qadınlara ailəyə bağlıdır: "Burada beynəlxalq təcrübə ilə yanaşı, cəmiyyətin fikri də nəzərə alınmalıdır".



**Musa Quliyev isə bir daha təkrar edib ki, qadının evdəki zəhməti kişilər tərəfindən qiymətləndirilməlidir: "Bu təklifi qadının evdə gördüyü işin qiymətləndirilməsi üçün verdim".**

# *Xocavənddə polis əməkdaşları silah-sursat aşkar edib*

*Xocavənddə polis əməkdaşları silah-sursat aşkar edib.*

*DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan Adalet.az-a verilən məlumata görə, Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş*



*ərazilərində düşmənin tərk etdiyi mövqelərdən döyüş sursatlarının aşkar olunaraq təhvil verilməsi istiqamətində mütəmadi profilaktiki tədbirlər aparılır. Xocavənd RPŞ-nin əməkdaşlarının rayon ərazisində keçirdiyi növbəti tədbirlər də uğurla nəticələnib.*

*Belə ki, ermənilərin ataraq qaçdığı 2 "Strela-3" daşınan zenit-raket kompleksi, 2 "Foqot", 1 "AQS-17" qurğusu, 4 qumbaraatan, 4 avtomat, 1 tank əleyhinə mina, 16 əl qumbarası, 16 partladıcı vasitə, 4 avtomat darağı və 1400 müxtəlif çaplı patronlar aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.*

# Fazil Mustafa: «Uşaqdan da pul soymağı qənimət bilirlər»



**"Məktəbliləri Qənimət Parkına aparırlar. Uşağın birinə iki manat ödənişdir".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Fazil Mustafa sosial şəbəkədə yazıb. O, Hərbi Qənimətlər Parkında uşaqlardan pul alınmasına etiraz edib: "Uşaqdan da pul soymağı qənimət bilirlər. Halbuki uşaqlara şərait yaratmaq lazımdır ki, gəlib rahatlıqla ziyarət etsinlər və müharibə haqqında təsəvvürləri formalaşsın. Vətənpərvərliyi də ödənişsiz şəkildə təbliğ edə bilmirik".

# Koronavirusdan ölən jurnalistlərin sayı açıqlandı



**"Azərbaycanda indiyədək 300-dən çox jurnalist koronavirusa yoluxub".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib. MŞ sədrinin sözlərinə görə, onlardan 14-ü vəfat edib. Ə. Amaşov Mətbuat Şurasının təşkilatçılığı ilə 1100-dən yuxarı jurnalistin vaksinasiya olunduğunu da əlavə edib.

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

# İRANIN TROLLARI VƏ TULALARI



***Deməli, belə. Bir sayta verdiyim müsahibədə demişdim ki, mənim Ağdamdakı evimi ermənilər 300-500 dollara iranlılara satıblar, onlar da söküb aparıb. Özü də mən bunu indi demirəm, 10-20 il bundan qabaq demişəm. Əlimdə fakt olmasa danışmaram.***

***Qarabağda işğal olunmuş ərazilərdə 150 000 - dən artıq şəxsi mülkiyyət vardı, təxminən onun yarısı qədər də inzibati binalar: xəstəxanalar, klublar, kino-teatrlar, həkim məntəqələri, kitabxanalar, abidələr, məktəblər və sair və ilaxır vardı.***

**Bax: səh.2**

# ABŞ HƏRBİ TƏYYARƏLƏRİ RUSİYANIN HİSLƏRİ İLƏ OYNAYIR

**Rusiyanın iki Su -30 qırıcı təyyarəsi Qara dəniz akvatoriyasında ABŞ-ın Rusiya sərhədlərinə tərəf uçan B-1B strateji bombardımançıtəyyarəsini geri qaytarıb.**

Milli müdafiə idarəetmə mərkəzindən verilən məlumatlara görə, radarlar səsdən sürətli təyyarələrin Rusiya sərhədlərinə doğru uçuşunu 19 oktyabrda qeydə alıb. Bombardımanşı təyyarəni iki KS -135 yanacaq daşıyan təyyarə müşahidə edirdi. "Dövlət sərhəddinin pozulmasının qarşısının alınması üçün iki Su-30 qırıcı təyyarə havaya qaldırıldı və ABŞ hərbi təyyarələri geri qaytarıldı"- deyə mərkəzdən bildirilib. Qeyd olunur ki, Su-30 qırıcılarının ekipaj üzvüləri beynəlxal qaydalar çərçivəsində hərəkət ediblər. Ümumiyyətlə son vaxtlar ABŞ hərbi təyyarələrinin bu cür hərəkətləri tez-tez müşahidə olunmaqdadır. Yəqin Sem dayının uşaqları rusların əsəblərini yoxlayırlar.

## GÜNÜN LƏTİFƏSİ

**- Alo: Doktor, xahiş edirəm, tez gəlin. Arvadımın kor bağırsağının ağrısı tutub!**

**-Narahat olmayın. İki il əvvəl arvadınızın kor bağırsağını kəsmişəm.**

**Adamda ikinci dəfə kor bağırsaq ola bilməz.**

**- Düzdü, doktor. Ancaq adamda ikinci arvad ola bilər.**

## Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

Görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişaf perspektivləri müzakirə edildi, Avropa İttifaqının Azərbaycanla əməkdaşlığın inkişafına önəm verdiyi vurğulandı, Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğu bildirildi.

Söhbət zamanı bu ilin iyul ayında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfərinə toxunularaq səfər zamanı Prezident İlham Əliyevlə Şarl Mişel arasında keçirilən görüşün Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına mühüm töhfə verdiyi qeyd olundu.

Görüşdə Avropa İttifaqının regionda sabitliyin və sülhün möhkəmləndirilməsi, etimad mühitinin formalaşdırılması işinə töhfə verməyə hazır olduğu vurğulandı.

Söhbət zamanı, həmçinin Şərq Tərəfdaşlığının qarşıdan gələn Zirvə toplantısı barədə fikir mübadiləsi aparıldı.

## *Ceyhun Bayramov: Ermənistan kommunikasiyaların açılması üçün əməli addımlar atmalıdır*

**Azərbaycan Ermənistanla münasibətlərin normallaşması üçün konstruktiv mövqe nümayiş etdirir.**

Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan Xorvatiya Respublikasının xarici və Avropa işləri naziri Qordan Grliç Radman ilə birgə mətbuat konfransında deyib. Nazir bildirib ki, Azərbaycan regionda kommunikasiyaların açılması üçün üzərinə düşən öhdəlikləri yerinə yetirir:

"Ermənistan tərəfi də bu istiqamətdə əməli addımlar atmalıdır".

## *Energetika naziri: Bu il Qubadlı, Zəngilan və Ağdamda 4 yarımstansiyanın yenidənqurulması başa çatdırılacaq*

**110/35/10 kV-luq "Qubadlı", "Zəngilan" "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və Daşkəsən yarımstansiyasının yenidənqurulması ilin sonuna qədər başa çatdırılacaq.**

Adalet.az-ın məlumatına görə, bunu energetika naziri Pərviz Şahbazov "Respublika" qəzetində "20 oktyabr Energetiklər Günü"nə həsr edilmiş "Azərbaycan energetikasının yeni dövrü Qarabağ və Şərqi Zəngəzurdan başlayır" adlı məqaləsində deyib.

Nazir qeyd edib ki, 110 kV-luq elektrik şəbəkənin qurulması ilə əlaqədar işlər ümumilikdə, 2-si yenidən qurulmaqla 11 yarımstansiya və onları əlaqələndirən 110 kilovoltluq xətlərin tikintisini əhatə edir:

"Şuşa, Kəlbəcər, Füzuli və Cəbrayılda 110/35/10 kV-luq 5 yarımstansiya artıq istismara verilib, həmçinin bu yarımstansiyaların ölkənin ümumi enerji sisteminə qoşulması üçün elektrik verilişi xətləri çəkilib. Xüsusilə Kəlbəcərdəki mürəkkəb relyef və hava şəraitində cəmi altı ay ərzində yüksək peşəkarlıq və ağır zəhmət hesabına belə bir yarımstansiyanın ərsəyə gəlməsi Azərbaycanın müasir energetika tarixinin əlamətdar hadisələrindəndir. 110/35/10 kV-luq "Qubadlı", "Zəngilan" "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və Daşkəsən yarımstansiyasının yenidənqurulması ilin sonuna qədər başa çatdırılacaqdır, bu yarımstansiyaları ölkənin enerji sistemi ilə əlaqələndirən xətlərin çəkilişi isə davam edir. Laçın rayonunun Qoşasu kəndi ərazisində isə yarımstansiyanın və əlaqələndirici xətlərin layihələndirilməsi işləri görülür".

## *Şəhid ailələri və müharibə əlillərinə, gözdən əlilliyi olanlara 50 mənzil verildi*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və müharibə əlillərinə, gözdən əlilliyi olan şəxslərə 50 mənzil təqdim edildi.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Adalet.az-a verilən məlumata görə, Abşeron rayonunda mənzillərin təqdim edilməsi tədbirində Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov və millət vəkili Şahin Seyidzadə iştirak ediblər.

V.Behbudov bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ötən il 44 günlük Vətən müharibəsində hər gün yeni qələbələrlə qəhrəmanlıq tarixi yazırdı. Ötən ilin bu günündə - 2020-ci ilin 20 oktyabrında şanlı Ordumuz daha bir tarixi qələbəyə imza atdı - Zəngilan şəhərini Ermənistanın işğalından azad etdi. Azərbaycanın möhtəşəm Zəfəri ilə başa çatan Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərlə bağlı geniş miqyaslı dəstək tədbirləri həyata keçirilir. Bu gün, Zəngilan şəhərinin azad edilməsinin birinci ildönümü olan bu əlamətdar gündə də həmin tədbirlər daha bir qrup şəhid ailəsi və müharibə əlilinə mənzillər verilməsi ilə davam edir.

Qeyd olunub ki, Prezident İlham Əliyevin şəhid ailələri və müharibə əlillərinə xüsusi qayğısının nəticəsi olaraq ötən dövrdə 11 min şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Dövlət başçısının müvafiq Sərəncamı ilə 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi evin bu kateqoriyalardan olan şəxslərə verilməsi nəzərdə tutulub. Onlardan 2021-ci il üzrə 3 min mənzil və fərdi evin verilməsi işləri davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu il şəhid ailələri və müharibə əlillərinə artıq 1800 mənzil verilib. Eyni zamanda Vətən Müharibəsi Qəhrəmanları və ya onlardan şəhid olanların ailələrinin, həmçinin gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələri məzunlarının da mənzillə təminatı işləri aparılır.

Ş.Seyidzadə postmüharibə dövründə şəhid ailələri və qazilərlə bağlı həyata keçirilən geniş miqyaslı sosial dəstək tədbirlərinin, onların mənzil təminatı prosesinin bu kateqoriyalardan olan vətəndaşlara diqqət və qayğının əyani təzahürü olduğunu vurğulayıb.

Mənzillərlə təmin olunan vətəndaşlar Prezident İlham Əliyevin şəhid ailələrinə, müharibə əlillərinə və həssas kateqoriyalardan olan digər şəxslərə xüsusi qayğısından razılıqlarını qeyd ediblər. Daima dəstəklə əhatə olunduqlarına, sosial-məişət şəraitlərinin yaxşılaşdırılması üçün aparılan işlərə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

# Hər kəsin və hamının Prezidentinin Xocavənd dərsi

**Hər bir insan üçün doğulduğu ev, ocaq, yurd bütün həyatının mənasını özündə ifadə edir. Yəni, bu ilk beşik insanı formalaşdırır və həmin o başlanğıcdan yol alan bir ömür özü ilə həm də o ilkinlikdən qazandıqlarını daşıyır.**

Bax, bu mənada evindən, ocağından uzaq düşmək həm də hardasa özündən də, dünənindən də uzaq düşməkdir. Mən o kənddən özüm ilə ancaq cismimi gətirmişdim. O cismdə də nə qədər özümü axtarırdım, tapa bilmirdim. Özümü tapmağım axır ki 2021-ci ilin noyabr ayının 9-a təsadüf etdi...

Hələ 1991-ci ilin oktyabr ayının 30-dan 31-nə keçən gecə erməni işğalçıları keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan Hadrut rayonunun Tuğ kəndini işğal etdi. Həmin işğal nəticəsində gözlərimin qarşısında kənd də yandı, mənim doğulduğum ev də. Bu vəhşətdən, sanki Allahın da xəbəri yox idi. Cinayəti törədən bəndə yox, vəhşi bir tayfa idi. Çox şükürlər, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan Vətən müharibəsi mənim də, köçkün soydaşlarımızın da doğma yard-yuva həsrəimizə son qoydu, Qarabağ düşmən tapdağından xilas oldu. İsğaldan azad edilən ərazilərdə yaradılan müasir kommunikasiyalar, tikilən obyektlər bizə sonsuz ümid verdi, dərin inam bağışladı. Bildik və əmin olduq ki, Böyük qayıdışın önündəyik. Və bu inam da bizi liderimizin, Ali Baş Komanda-nımızın ətrafında daha sıx birləşdirdi. Həmin birliyin qalib ifadəsini 44 günlük Vətən müharibəsində gördük. Bir il əvvəl aparılan o ölüm-dirim savaşı günlərində hamımız şahidi olduq ki, Ali Baş Komandan öz "dəmir yumruğunu" ortaya qoymaqla, düşmənin "yenilməz ordu" mifini darmadağın etdi. Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana, Hadruta, Şuşaya Azərbaycan bayrağı sancıldı. Bu çevrədə mənim doğma Tuğ kəndim də azad edildi. Azərbaycanın möhtəşəm qələbəsinin, Ermənistanın rüsvayçı məğlubiyyətinin davamı olaraq işğaldan xilas olmaq sevincini Ağdam da, Kəlbəcər də, Laçın da yaşadı. Bütöv Azərbaycan Böyük Zəfərin nuruna büründü. Bax, o müqəddəs nurdan mənə də pay düşdü. Yəni, 30 il görmədiyim, yuxularımda, xəyallarımda daşıdığım kəndimi ziyarət qisməti üzümə güldü.





Bir neçə gün bundan öncə Bakıdan Tuğa avtobus yola düşdü. 30 il bu yolla Bakıdan Tuğa avtobus getməmişdi. Avtobusun sərnişinləri arasında mən də var idim. Bu avtobus Hadruta, Tuğa, Xocavənd ictimaiyyətinin nümayəndələrini aparırdı. Biz Hadrutda, Tuğda olanda keçirdiyimiz hissləri, yaşadığımız anları sözə çevirmək, sözlə ifadə etmək qeyri-mümkündür. Xüsusilə ona görə ki, dağıdılmış, viran edilmiş bu yerlərdə ordumuzun, əsgərlərimizin qətiyyəti, mərdanə və ev sahibi əzmi ilə xidmət etmələri şəxsən mənə sonsuz qürur bağışladı. Mən bu dağıntıların içərisində yeni tikiləcək evləri və bu torpağın sahiblərini görürdüm. Həmsöhbət olduğum hərbçilərimiz suallarıma o qədər səmimi və ürəkdən cavab verirdilər ki, bu mənə həm yaddaşımın bərpası, həm də ümidimin qol-qanad açması üçün əlavə güc verirdi. Gəncliyimin keçdiyi Hadrut qəsəbəsi, burada şahidi olduğum neçə-neçə hadisə bir anda gözümün önünə gəldi. Çinar bulağının suyundan ovuclayıb içdim. Elə bildim ki, həmin o illərdəyəm. Başımı qaldırıb baxanda düşmənin viran qoyduğu binaların qaraltısı məni yenidən müharibənin səbəbkarlarına nifrətə köklədi. Biz burada olduğumuz anlarda etdiyimiz söhbətlərdən nəticə bu oldu ki, Hadrut qəsəbəsi düşmənin bel sütununun qırıldığı nöqtədir.

Məhz Ali Baş Komandanımız da Hadrutda bizimlə söhbət zamanı vurğuladı ki, düşmən Azərbaycan ordusunun Hadrut istiqamətində hücum edəcəyini gözləmirdi. Bizim müzəffər Ordumuz onların alınmaz qala hesab etdiyi Hadrutu geri alanda artıq ermənilər müharibəni uduzduqlarını anlamağa başladılar. Bu da onlar üçün çox gec idi. Onlar illər boyu bizim humanistliyimizin, dözümümüzün sonsuzluğuna ümid bağlayırdılar. Amma bilmirdilər ki, biz onları öz ata-baba yurdumuzdan mütləq qovub çıxardacağıq. Biz də bunu etdik!

Bəli, elə buradaca cənab Prezident İlham Əliyev xoş bir ovqatla üzünü bizə tutub dedi: "İndi də sizi Tuğa dəvət edirəm".

İnanın ki, bu dəvət o qədər səmimi ifadə oldu ki, mən və digər tuğlular alqışlarla özümüzü maşınlara atdıq. Cənab Prezidentin səfər karvanına qoşulubTuğa yollandıq. Hadrutla Tuğ arasındakı 12 kilometrlik yolu necə, hansı sürətlə keçdiyimizi hiss etmədim. Bir də özümə gəldim ki, biz artıq Tuğdayıq. Mənim doğulduğum evin beş addımlığında dayanmışıq. Kol basmış bu həyətdə həyat əlaməti yox idi. Cənab Prezident yenə əvvəlki səmimiyyət və xoş ovqatla, həm də ev sahibi kimi bizi salamladı:

***-Tuğa xoş gəlmisiniz! Gəlin sizi Tuğla tanış edim.***

Mən dayandığım yerdə Prezidentimə üz tutaraq kövrək bir nisgillə dedim:

***-Cənab Prezident, bu mənim doğulduğum evdir, qarşıdakı isə mənim oxuduğum məktəb.***

Son dərəcə həssas və səmimi insan olan Prezidentim özünəməxsus şəkildə dilləndi:

***-Bəli, hər şeyi görürəm, keçən səfərimdə də baxdım. Tuğ əsl cənnətdir. Biz bu kəndi tamam fərqli layihə ilə bərpa edəcəyik. Tuğun özəlliklərini qoruyub saxlayacağıq. Bura yalnız istirahət zonası olacaq. Bu kəndin gözəlliklərindən, mineral bulaqlarından hamı istifadə edəcəkdir. Burda insanlar əvvəlki kimi kənd təsərrüfatı ilə məşğul olacaq.***

Tuğ kəndində olduğumuz həmin gün mən təkcə evimə, kəndimə qayıtmadım. Həmin gün həm də kəndimi xilas edib məni doğma ocağıma gətirmiş öz Prezidentimi yenidən tanıdım. Bütünlüklə əmin oldum ki, o, şəxsən mənim prezidentimdir, Qarabağın prezidentidir, bütün azərbaycanlıların prezidentidir!

**Bu səfər zamanı cənab İlham Əliyevlə etdiyim söhbət, onun tuğlulara və bütövlükdə, kəndimin tarixinə, dünəninə böyük marağı məni əməlli-başlı duyğulandırdı. Əmin oldum ki, bu ölkənin uzaqgörən, fateh, dünya liderləri ilə bir cərgədə dayanan Prezidenti həm də ölkəsinin tarixini gözəl bilən müdrik lideri var. Məncə, xalqımızın xoşbəxtliyinin də əsasında məhz bu iki məqam durur. Bax, kəndimə 30 ildən sonra etdiyim səfərin mənə verdiyi həyat dərsi də bu oldu.**

**Əbülfət MƏDƏTOĞLU,**
**şair-publisist,**
**Əməkdar jurnalist,**
**"Xalq" qəzeti, 20 oktyabr 2021**

# Regionun "maraq dairəsi": "Erməni-fars qardaşlığı" nın iç üzü, "gizli qazanc"ın ifşası

**Ermənistanın baş naziri Nikol Paşinyan MDB Dövlət Başçıları Şurasının iclasında siyasi savadsızlığı ucbatından ən yaxın müdafiəçisini ifşa etdikdən sonra bir çox həqiqətlər meydana çıxdı. Yadınızdadırsa, bir neçə gün əvvəl baş tutan həmin iclasda Prezident İlham Əliyev çıxış etdi və İranla 132 km-lik sərhəd xəttinin nəzarətə alındığını, İran və Ermənistanın narkotik ticarəti ilə birbaşa məşğul olduğunu dedikdən sonra fakt da təqdim etdi; bildirdi ki, müharibədən, yəni sərhədlər nəzarətə götürüləndən sonra İrandan gətirilən narkotiklərin həcmində 2 dəfə artım qeydə alınıb.**

Adalet.az xəbər verir ki, İlham Əliyevin bu sözlərinə etiraz edən Nikol Paşinyan isə maraqlı faktı açıqladı. O bildirdi ki, İran və Ermənistan da "narkotikə qarşı mübarizə" aparır, bizdə isə (yəni Ermənistan sərhədində) müharibədən sonra keçən bir il ərzində sərhəddə tutulan narkotikin həcmi iki dəfə deyil, 3-4 dəfə artıb. Nikol Paşinyan guya təkzibə qalxmışdı, əvəzində isə İlham Əliyevin sözlərini təsdiqlədi və dolayısı ilə İranı ittiham edib, Ermənistanı xilas etməyə çalışdı.

### *Bu faktı təkcə Əliyev deyirmi? İranın girdiyi girdab*

***Bütün xarici, yerli siyasi ekspertlərin gəldiyi son nəticə budur ki, İranın Azərbaycana aqressiyası tək "erməni-fars qardaşlığı"ndan qaynaqlanmır. sanksiya məhdudiyyətləri içində ABŞ-la mübarizə aparan İranın "gizli qazancı"nın kəsilməsi Tehranın Bakıya qarşı sərt münasibətinin əsas səbəbidir.***

***Məsələn, türk ekspert Həsən Oqtay mətbuata açıqlamasında söylədi ki, İranın qanunsuz əlaqələri olan yeganə qonşusu Ermənistandır və Ermənistanın işğal etdiyi Azərbaycana məxsus olan rayonlar İran üçün "nəfəslik" idi: "İranın Azərbaycanı tənqid etməsində İsrail bəhanədir, əsl səbəb Cəbrayıl-Füzuli üzərindən Ermənistana göndərilən qanunsuz mallardır. İran İnqilab Keşikçiləri bu ticarətdən böyük qazanc əldə edirdilər və bu mənfəətlərdən məhrum olduqda, İsrail bəhanəsinin arxasında gizlənərək Azərbaycana qarşı sərt mövqe sərgiləməyə başladılar".***

Ekspertin fikrini elə İran rəsmilərinin açıqlamaları da təsdiq edir. Ötən ilİranın Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İskəndər Mömini bir açıqlama etmişdi. Həmin açıqlamaya görə, İranda gündəlik iki tondan çox narkotik maddə istehlak olunur.

Təkcə ötən il bu qədər idi. Yəqin ki, bu bir az da artıb. Ötən ilin məlumatlarına görə, İranda narkomanların 67 faizi heroin və tiryək istifadəçiləridir. Dünya Səhiyyə Təşkilatının statistik hesabatına görə, reabilitasiya mərkəzlərinə müraciət edənlərin 70 faizini narkomanlar təşkil edib. 52356 nəfər narkotiklərlə əlaqədar həbs olunub. Bir faktı nəzərinizə çatdıraq: İranın Sistan və Bəluçistan əyalətinin Nikşəhr şəhərində təkcə 2019-cu ildə 1 ton 789 kiloqramdan çox narkotik maddə aşkarlanıb. Əlbəttə, artıq heç kəsə sirr deyil ki, bir çox dövlətlərin görünməz alətlərindən biri terror dəstələri və narkotik ticarətidir.



Müxtəlif məqsədlərlə belə "görünməz alətlər"dən istifadə edən həmin ölkələr həm büdcədə ki yeyintilərin yerini doldurur, həm şəxsi mənfəətini yaradır, həm də özündən zəif dövlətlərə qarşı lazım olan zamanlarda öz gücünü göstərir. Təbii ki, bu kontekstdə İran ən öndə olan ölkələrdəndir. O həmçinin narkotikin Avropaya göndərilməsində mühüm rol oynayır, narkoticarət İran üçün əhəmiyyətli bir gəlir mənbəyidir. Məhz Qarabağdakı 44 günlük müharibədən sonra Arazboyu bütün torpaqlara, xüsusən İranın gediş-gəlişinə, ticarətinə mane olan narkotik əkilən ərazilərə Azərbaycan Ordusunun nəzarət etməsi İranı xeyli "kasıb" salıb və eyni zamanda onun əsəbləşməsinə zəmin yaradıb.

### *Yəməndən İraqa qədər*

***Digər türk hərbi ekspert Həsən Məsud Öndər də düşünür ki, İranın İkinci Qarabağ savaşında Ermənistana gizli dəstək verməsinin səbəbləri sırasında narkotik ticarəti də dayanır:***

"Bu sahədəki "dövriyyə" milyard dollarla ifadə olunur. İranın son vaxtlar Azərbaycana qarşı qəzəblənməsinin səbəblərindən biri də Ermənistanla qurduğu narkotik dövriyyəsinin məhv olmasıdır. İranın narkotik alverində PKK terror təşkilatının əhəmiyyətli rolunu da nəzərə alsaq, İkinci Qarabağ müharibəsində PKK ünsürlərinin Ermənistanla birlikdə döyüşməsinin səbəbi də ortaya çıxar".

***Rusiyalı tarixçi, hərbi ekspert Oleq Kuznetsov fikrincə, Tehranın Bakıya qarşı siyasətinin kəskinləşməsinin səbəbi Azərbaycanın vaxtilə nəzarətsiz əraziləri və Rusiya vasitəsilə İrandan Latviyaya narkotranzitinə Azərbaycanın "stop" verməsidir. Bu yaxınlarda Biləsuvarda yarım ton heroin müsadirə edildi, bunu da yaddan çıxarmayın!.***

"Nəzərə alın ki, bu, İranın Azərbaycan ərazisindən keçirmək istədiyi və Bakı tərəfindən qarşısı alınan ilk iri narkotik partiyası deyil. 44 günlük müharibədən bu yana Azərbaycan xüsusi xidmət orqanları 1.5 tondan çox heroin trafikinin qarşısını alıb. Bu isə ümumilikdə İran narkoticarətinə ciddi zərbədir. Bakı İrana axan milyardlarla haram pulun qarşısını alır...

Heç vaxt inanmaram ki, İran hakimiyyəti narkotrafiki təşviq etməsin. Onlar nəinki bu barədə bilir, həm də bunu öz geosiyasi məqsədləri üçün istifadə edirlər. Heç kimə sirr deyil ki, İranın Yaxın Şərqin ən müxtəlif ölkələrində - Yəməndən İraqa qədər şiə hərbi qruplaşmaları mövcuddur və onları qeyri-leqal gələn pullarla saxlamaq gərəkir. Əks təqdirdə pullar büdcədən getsə, bu, beynəlxalq terrorizmə sponsorluğun İran tərəfindən açıq etirafı kimi qələmə alınacaq. Haram pullarla terrorizmi maliyyəşdirən Tehran hazırda başqalarını terrorizmə dəstəkdə ittiham edir. Bu vəziyyət İranın 1990-cı illərdə Azərbaycan torpaqlarının işğal edilməsində olan gizli dəstəyini tam olaraq izah edir. Rəsmi Tehran Qarabağı Ermənistan və Gürcüstan vasitəsilə azad narkotrafik dəhlizi kimi illərdir istifadə edib. Əgər Azərbaycan bu narkotrafikin qarşısını almasaydı və ya heç olmasa ona çox ciddi zərbə vurmasaydı, əksinə, bu narkotikə razılıq versəydi, Bakı ilə Tehran arasında münasibətlərdə heç bir problem olmazdı.

Amma Azərbaycan İran narkotrafikinə çox ciddi maneə oldu və cavabında müşahidə etdiyimiz proseslər baş verdi".

Göründüyü kimi İranın Azərbaycana hiddətlənməsinin əsas səbəbini bilməyən yoxdur.

**Maraqlıdır, görəsən, aləmə aşkar olan məqsədli "qardaşlıq" prinsiplərinin puç olduğunu anlayan İran"qardaşlığından, yaxud prinsiplərindən əl çəkəcəkmi? Əl çəkərsən uğurlu işlər başlayara, Əks halda, bu tək İranın deyil, Qafqazda sülh və asayiş istəyən, ticarət və kommunikasiya xarakterli münasibəti genişləndirmək məqsədi daşıyanların da maraq dairəsindədir.**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# İRANIN TROLLARI VƏ TULALARI

***Deməli, belə. Bir sayta verdiyim müsahibədə demişdim ki, mənim Ağdamdakı evimi ermənilər 300-500 dollara iranlılara satıblar, onlar da söküb aparıb. Özü də mən bunu indi demirəm, 10-20 il bundan qabaq demişəm. Əlimdə fakt olmasa danışmaram.***

***Qarabağda işğal olunmuş ərazilərdə 150 000 - dən artıq şəxsi mülkiyyət vardı, təxminən onun yarısı qədər də inzibati binalar: xəstəxanalar, klublar, kino-teatrlar, həkim məntəqələri, kitabxanalar, abidələr, məktəblər və sair və ilaxır vardı.***

***Mən qayıdıram təkcə Ağdama. Ağdamın şəhər əhalisi təxminən 60 min idi. Bu da 14-15 min mülk deməkdi. Amma Ağdam Qarabağın paytaxtı olduğuna görə mülki evlərdən başqa, 3-4 min də ticarət obyekti vardı. Təkcə bazarda 500-ə yaxın dəmirçixana vardı. Çünki şənbə-bazar bütün Qarabağ Ağdama tökülərdi. Buna görə də az qala Ağdamdakı yaşayış evləri qədər ticari və digər inzibati obyektlər vardı. Kəsəsi, bir rayonda təkcə 47-dən çox tikinti idarəsi vardı. Uzağa getmək lazım deyil, işğala qədərki Ağdamın hansı vəziyyətdə olduğunu çatdırmaq istəyərdim: 10 orta məktəb, 3 kino-teatr (həmin vaxt hər rayonda bir kino-teatr olardı), 3 uşaq musiqi məktəb və Muğam məktəbini də bura əlavə edirəm, 4 texnikum, Dövlət Dram Teatrı, Mədəniyyət evi, şəhərdə 3 mərkəzi kitabxana (mən bura Maarifin və Müəllimlər evinin kitabxanasını daxil eləmirəm), ilk alış-veriş mərkəzi, zavodlar, fabriklər, o zavod-fabriklər ki Azərbaycanın iqtisadiyyatına nə qədər xeyir verirdilər. Hətta Metis-furnitir zavodu SSRİ-yə hərbi sənayedə nələr edirdi, bu ayrıca bir mövzudu. Şəhərdə 2 peşə məktəbi, peşə məktəbinin birində savaş başlayan kimi Hacı Əkbər Rüstəmov şagirdlərindən bir könüllü batalyon yaratmışdı və oğlu Sənan Rüstəmov da döyüşlərdə atasının gözü qabağında yaralananda Hacı Əkbər öz oğlunu yox, şagirdini xilas etmişdi. Oğlu Sənan da Rey Kərimoğlunun qucağında şəhid olmuşdu.***

***1988-ci ildən 1994-cü il atəşkəsə qədər səngərdə olmuşam, əsgərlərimizin yanında olmuşam, demirəm erməni öldürmüşəm, amma döyüşün içində olmuşam. Qucağımda neçə şəhid dünyasını dəyişib, görmüşəm. Və çalışmışam ki, bunları qələmə alım . "Dolu" romanında bunları yazmışam, necə müvəffəq olmuşam, onu həm romanı oxuyanlar, həm də "Dolu" filminə baxanlar bilir.***

***İndi bu yazını niyə yazıram? Deməli, saytlardan biri mənim fikrimi manşetə çıxarıb ki, ermənilər Ağdamdakı evimizi iranlılara 300-500 dollara satıblar.***

***Bu gün İranın şərəfsizlikləri ilə bağlı yazılar gedir mətbuatda. Bunun mənə dəxli yoxdu. Və mən 20 ildən çoxdur ki, bu barədə yazıram və yazacam da. Yəni bugünki məsələlərin mənim yazılarıma dəxli yoxdur. Yəni mən bugünki hadisələrə qoşulub kampaniya xətrinə nəsə yazmıram. Bunu dəfələrlə televizorlarda da demişəm, məqalələrimdə də yazmışam.***

***İndi baxıram, ilahi, İranın ölkəmizdə nə qədər trolları və tulaları var hamısı mənə söyür. Və "sağ olsun" bunu paylaşan saytlar da qapılarını həmin trolların və tulaların üzünə açıb. Bunlar da mənə söyürlər və kimlərsə bundan ləzzət alır.***

***Mənim onlara cavab vermək imkanım yoxdur, çünki nə facebookdayam, nə də mənim trol və ya tula tutmağa imkanım yoxdur.***

***Söyün, dostlar, nə qədər istəyirsiniz. Amma mən elə belə, təkcə cavab verə biləcək gücündəyəm. İranla da heç bir şəxsi problemim yoxdur, varsa ümumi problemdir.***

***Darıxmayın, trollar və tulalar, yaxın nömrələrimizdə daha ciddi faktlarla sizə cavab verəcəm. Biz susduqca onlar güclənir və çox təəssüf ki, həqiqəti bilənlər trollardan və tulalardan qorxur, onlara cavab verə bilmirlər.***

***Vaxtilə bizdə Milli Təhlükəsizlik Nazirliyi vardı, mən o vaxt bu nazirliyin adını Milli Təhlükəlilik Nazirliyi yazırdım. Niyə? Əgər Milli Təhlükəsizlik Nazirliyi o vaxt öz vəzifəsini yerinə yetirsəydi İran trol və tulaları bu gün ölkəmizdə at oynatmazdı.***

***Ardı qalsın sonraya.***

***P.S.** **İranın bu trolları və tulaları ziyalılarımıza hücum edirlər ki, sussunlar. Susmayacağıq, trollar və tulalar, nə qədər istəyirsiz bizə söyün, əlimizi dəmirə qoymuşuq.***

## *Korotçenko: Türkiyə bunu etsə, supergücə çevriləcək*



**Türkiyə Rusiyanın Su-57-ni alacağı təqdirdə regional supergücə çevrilə bilər.**

Bu sözləri rusiyalı hərbi ekspert İqor Korotçenko ABŞ-ın Türkiyəyə F-16 təklifini şərh edərkən deyib.

Onun sözlərinə görə, Vaşinqton bu təklifi ilə Ankaraya hörmətsizlik edir: "F-35 - beşinci nəsil qırıcı təyyarədir və F-16 ilə müqayisəedilməzdir. F-35 təyyarəsi almaq Türkiyə üçün önəmlidir. Türkiyənin xərclədiyi külli miqdarda vəsait qarşılığında ABŞ-dan embarqo alması NATO-nun ikinci böyük hərbi gücünə hörmətsizlikdir. ABŞ Türkiyəyə yönəlik bütün qırmızı cizgiləri keçdi".

Korotçenko bildirir ki, ABŞ-ın bu kimi addımlarına Ankaranın ən yaxşı cavabı Su-57 əldə etməsi olar:

"Su-57 F-35-dən daha yaxşıdır. F-35 yüngül, Su-57 isə daha ağır təyyarədir. Türkiyə Su-57 ilə bütün Avropa ölkərini geridə qoyacaq supergücə çevrilə bilər. Hərbi və siyasi baxımdan da mütləq şəkildə öz sözünü qlobal miqyasda deyəcək".

## *Zelenski Poroşenkonu yenə qabaqladı*

**Ukrayna Prezidenti Vladimir Zelenski yenə də ölkə siyasətçiləri arasında liderdir.**

Bu nəticə Kiyev Beynəlxalq Sosiologiya İnstitutunun keçirdiyi sorğudan sonra ortaya çıxıb. Məlumata görə, əgər prezident seçkisi yaxın zamanlarda baş tutsa, prezidentə respondentlərin 24,7%-i səs verməyə hazır olduqlarını bildiriblər.

Ondan sonrakı yerdə Avropa Həmrəyliyi Partiyasının sədri Pyotr Poroşenko (15,6%), Batkivşina Partiyasının sədri Yuliya Timoşenko (12,2%) qərarlaşıb.

## *Moskvada Əfqanıstanla bağlı müzakirələr başladı*

**Dünən Rusiyanın paytaxtında Əfqanıstanla bağlı Moskva formatında məsləhətləşmələrin üçüncüsü başlayıb. Görüşdə bölgənin on ölkəsinin nümayəndəsi iştirak edir. Görüşdə Əfqanıstanı Talibanın nümayəndə heyəti təmsil edir.**

Qeyd edək ki, bundan öncə Əfqanıstandakı müvəqqəti hökumət başçısının müavini Əbdül Salam Hənəfinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında mətbuata qapalı görüş keçirilmişdi.

**MEHRİBAN**

# Can, ay kasıb

**...Dünən axşam böyük Üzeyir Hacıbəyovun kitabını vərəqləyirdim. Və kitabı vərəqləyəndə qarşıma çoxdan oxuduğum bir felyeton yenidən çıxdı. Felyetonun adı belədir: "Bir şvetsarla müsəlmanın söhbəti". Və bu felyetonu oxuyanda gözümün qabağına dünyanın bütün kasıbları gəldi. Evi olmayan, çörək tapa bilməyən, dərmana pul axtaran və hətta dərdini kiməsə deməyi bacarmayan dünyanın kasıbları yadıma düşdü. O kasıblar ki, onların Allahdan savayı heç kimi yoxdur...**

...Yəni ən çətin anda, ən çətin məqamda onlar Allaha sığınır, ondan kömək istəyirlər. Aydındır ki, dualar da həmişə qəbul olunmur. Və kasıbın bəxti onda gətirməyib ki, elə kasıb olub. Kasıbçılığın üzü qara olsun. İstəyir dünyanın ən müdrik adamı ol, ağıllı insanı kimi camaat səni tanısın, dəryacan ağlın olsa, yenə kasıb olsan güləcəklər. Səhv etmirəmsə bu bizim atalar sözlərindən biridir. Mən də onu bir qədər inprovizasiya eləyib hörmətli oxucularımıza yenidən ötürürəm...

***...Axı Üzeyir bəyin felyetonundan danışırdıq. Orda müsəlman şvetsara deyir ki, yəqin sizin ölkədə də varlı və kasıblar var. O da başını tərpədərək bildirir ki, əlbəttə, bizdə kasıblar və varlılar var. Amma bizdəki varlı adamlar heç vaxt kasıbları darda qoymur, arxa durur və çalışır ki, onlar da varlansınlar...***

...Müsəlmanın bu sözlərdən gözləri böyüyür. Deyir necə yəni, belə də iş olar, bu, heç yaxşı iş olmadı! Şvetsar yenidən müsəlmandan soruşur ki, bəs sizdə necə, kasıblar və varlılar varmı? Müsəlman da dillənir ki, bəli, bizdə də kasıblar və varlılar var. Amma sizdən fərqli olaraq bizdə kasıblara hər adam kömək etmir. Yəni bizdəki varlı adamlar istəmirlər ki, kasıblar varlansın və onların cərgəsinə qoşulsun. Çünki kasıblar varlanar və gəlib axırda o varlıların başına oyun açar. Bəs onda o varlıların əlinin altında olub, işini görən kim olacaq?! Sən ağa, mən ağa, bəs inəkləri kim sağa?

...Müsəlmanın bu sözündən şvetsar bərk dilxor olur, deyir, siz nə təhər millətsiz ki, bir-birinizə arxa durmaq istəmirsiniz. Mən dünyada belə xalq görməmişəm.



Müsəlman da şvetsarın bu sözündən bərk əsəbləşir, dilxor olur.

Şvetsar deyir ki, tay, bu insanlıq olmadı ki? Belə də millət olar? Varlılar kasıbların yaxşı dolanmağını istəmirlər. Müsəlman da deyir ki, biz lap yaxşı millətik. Gedin, öz dərdinizi çəkin. Əgər o kasıblar varlansa, gəlib oturar varlıların boynunda. Sonra onu o boyundan kim düşürdəcək?! Sən Allah, get öz millətinin işinə qarış, bizim millətlə işin olmasın. Və şvetsar da gedir öz millətinin işi ilə məşğul olur. Millət də inkişaf edib, olur obrazovonnu bir xalq...

***...Allah-təala heç kimi varlı və kasıb yaratmayıb. Sadəcə olaraq kamil və cahil insanlar var. Adam var kasıbdı, amma dünya boyda ürəyi var. Bu vətənin, bu xalqın ən ağır günündə iki oğlunu şəhid verir və deyir ki, lazım gəlsə, gedib özüm də döyüşərəm. Şükür olsun ki, ölkəmizdə kasıblığın səviyyəsi ilbəil aşağı düşür. Amma görünən odur ki, bu gün bahalıq şəraitində əhalinin kasıb təbəqəsi daha çox əziyyət çəkir.***

...Yanacağın, işığın, qazın qiymətinin qalxması kasıb təbəqənini gününü göy əskiyə büküb. Hələ mən 130 manat müavinət alan, 200 manat təqaüdlə dolanan insanların dərdini demirəm. Onların dərdini desəm, bir qoca arvad lazımdı ki, dəsmal götürüb ağı deyib ağlasın.

Bizdəki varlı adamların heç də hamısı yetimə, yesirə, kimsəsizə arxa durmur, dayaq olmur. Əgər hər bir varlı adam çox yox, beş kasıba arxa dursa, inanın, məmləkətimizdə kasıb ailə qalmaz. Onsuz da dövlət bu addımları atır, amma sadəcə olaraq varlı və imkanlı adamların hamısı ehtiyac içində yaşayan aztəminatlı ailələrə kömək göstərmirlər.

***...Ancaq bir müğənniyə, hər gün televiziyalarda atılıb-düşən və çılpaq görkəmi ilə o pullu adamların diqqətini cəlb edən qızlara bəzi varlılar nəinki bahalı avtomobil, şəhərin mərkəzi yerində dörd-beş otaqlı ev hədiyyə edirlər. Ona görə də bir də görürsən ki, yumurtadan dınq edib çıxan müğənni başaldı o kanal, bu kanalı sülənməyə. Gəzir, gəzir və axırda da istədiyinə nail olur. Savadsız və cahil, pullu adam onu qısa zamanda ulduz edir, bahalı maşın alır və ev-eşik düzəldir. Amma o varlı adam ehtiyac içində olan qardaşına, bacısına 20-30 manat verməyə canı çıxır...***

...Elə bil mətləbi bir qədər uzatdım. Buna görə hörmətli oxucularımızdan üzr istəyirəm. Əgər kiminsə imkanı olub kasıb qohumuna, əqrəbasına, lap qonşusuna kömək eləmirsə, Allaha and olsun, o adam xirtdəyə qədər günaha batır. Necə yəni, qardaşın birinin hər cür şəraiti var, vardövləti başından aşır, digər bir qardaş isə dərman almağa pul tapmır, çətinliklər içərisində boğulur. Bu qardaş onu görmürsə, deməli o heç qardaş deyil və onun heç ürəyi də yoxdur. Bunu Allah götürməz. Ürəyi olan adam çörək tapa bilməyən ac qardaşını çətin vəziyyətdə qoymaz. Yediyi çörək ilan sümüyü kimi, balıq sümüyü kimi boğazında qalar...

...Kasıbların da bir xoşbəxtliyi var. Onlar qazandıqları bir tikə çörəyi, bir tikə ruzunu çox rahatlıqla yeyirlər. Evlərində sakit yaşayırlar və kimsə gəlib qapısını döymür ki, mənim filan şeyimi oğurlamısan, ya yemisən, onu qaytar!...

**...Bütün dünyanın kasıblarının bəxti açılsın və bir gün, bir an onlar da kasıblığın daşını atıb rahat yaşasınlar. Və bir də bizim ölkədə heç kim acından ölmür. Hamının yeməyə çörəyi də var, içməyə suyu da. Sadəcə olaraq ehtiyac içində olan insanlara biz hamımız arxa durmalıyıq. Bu, Allaha da xoş gedər!...**

**Faiq QİSMƏTOĞLU**

# 2907-nin biri

## *Şəhid Nicat Baxşəliyevin xatirəsinə*

**...1993-cü ilin isti bir yay günü doğulmuşdu qocaman Bərdədə. Bu gəlişi ilə evlərindəki balaca dünyanı da sevincə qərq eləmişdi. Pəncərədən Ziyafətin evinə düşən günəşin işığı da çoxalmışdı elə bil. Körpə Nicatın gəlişi ilə dünyası təzələnmişdi. İçində qəribə bir təbəddülat vardı. Bu münasibətlə deyilən təbriklər bir az da utandırırdı gənc atanı.**

Beləcə illər bir-birini qovdu. Böyüyüb yaraşıqlı, yurdsevər, torpaqcanlı, istiqanlı bir oğlan olmuşdu. Doğmaların, dostların, hətta yaxın qonşuların sevdiyi bir gənc idi-Nicat.

Üzündə silinməz-pozulmaz bir təbəssüm var idi. Sakit və azdanışan idi. Azca ünsiyyətdə olsan, elə bilərdin ki, sizin evin uşağıdı. İnsana xas olan yaxşı nə var idisə hamısı onda cəmlənmişdi.

Cəbhəyə getməmişdən anasını itirmişdi. Dərd-sərini bildirən birisi deyildi. Hiss eləyirdin ki, çəkdiyini xəlvət-içində çəkir. Dərd bölən adama da oxşamırdı. Üzündəki təbəssüm onu tamam "örtürdü".

Hərdən rastlaşırdıq. Tez salamlaşıb ötmək istəyirdi. Qəsdən onu bəzən ləngidirdim. Çox istəyirdim bu az-az gördüyüm oğlanı. İnsan onun səmimiyyətindən rahatlanır, darıxmırdı. Bir dəfə evlərində (o mənim əmim nəvəsidi) çay süfrəsində bir azca dərdləşdik. Rəhmətlikdən söz almaq yayda dağdan qar almaq kimi bir şey idi. Məni yola salanda gördüm ki, sözlü adama oxşayır. Bir az yaxın gəlib, utana-utana "əmi, bir söz desəm, atamgilə deməzsən ki?!"- dedi. Mən, bu qeyri-adi təmasdan diksinən kimi oldum. Ona söz verdim ki, nə sirr olsa, aramızda qalacaq.




"Müharibə başlasa mən cəbhəyə gedəcəm. Mən bu sarsıntıya, bu töhmətə dözə bilmirəm. Milləti bu üzüntüdən qurtarmaq gərəkdir"...Mən təəccüblə ona baxdım. Və hiss elədim ki, mən bu gülərüz, qara dinməz oğlanı yaxşı tanımıram

Dedi, əlimi möhkəm sığıb uzaqlaşdı. İkimiz də kövrəlmişdik... Onun arxasınca baxa-baxa qaldım.

Az sonra eşitdim ki, evlərinə çağırış gəlib. Güman ki, könüllü cəbhəyə getmək üçün ərizə vermişimiş.

Atası, doğmaları çox dilə tutublar ki, fikrindən dönsün qətiyyətlə bildirib ki, torpaqlarımız azad olunmayana qədər burda dura bilmərəm. Öldü var döndü yoxdur!

...18 oktyabr 2020-ci il tarixdə Ağdərə uğrunda gedən qanlı döyüşlər zamanı səngərdə vuruşan 9 əsgərin 3-ü şəhidlik zirvəsinə ucalır.

Nicat Ziyafət oğlu Baxşəliyev də onların arasında idi. Əslində Nicat, doğma Qarabağ torpağının azadlığını doğmalarından üstün tutan 2907 şəhiddən biri oldu.

Söz ardı. Son nəfəsində əsgər dostlarından birinə vəsiyyət edib ki, məni Bərdədə anamın yanında dəfn eləsinlər.

**Bərdənin Dəmir yol vağzalının yaxınlığındakı Alaçadırlı qəbirstanında qara mərmərdən ucaldılmış bir məzar var. Ordan bir üzügülər əsgər boylanır-ana məzarının qonşuluğundan. Məqamın mübarək şəhid Nicat Baxşəliyev. Məkanın cənnət olsun!**

**Rizvan Nəsiboğlu**

## *Keçmiş hakim məhkəmədə həbs edildi*



**Keçmiş hakim Lətif Nəbiyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

"Adalet.az" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində külli miqdarda dələduzluq etməkdə təqsirləndirilən müttəhimə İlham Mahmudovun sədrliyi ilə keçirilən prosesin sonunda L.Nəbiyev məhkəmə zalında həbs edilib və ona 8 il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin olunub.

Qeyd edək ki, keçmiş hakim torpaq alqı-satqısı və şərikli iş görmək adı ilə zərərçəkmiş Azad İbrahimovdan dəniz kənarında 120 sot torpaq sahəsi alacağı vədi ilə 247 min dollar alıb. Digər zərərçəkmiş Rüstəm Abdullayev isə L.Nəbiyevə şərikli iş görmək adı ilə 59 700 dollar verib. Hökmə əsasən, iki tanışının 307 min dollardan çox pulunu mənimsəyən L.Nəbiyev vurduğu ziyanı da ödəməlidir.

Xatırladaq ki, Lətif Nəbiyev 2000-2007-ci illərdə Bakı Apellyasiya Məhkəməsinin, 2007-2008-ci illərdə isə Suraxanı Rayon Məhkəməsinin hakimi olub. 24 aprel 2008-ci ildə Məhkəmə-Hüquq Şurasının qərarı ilə statusundan və vəzifə səlahiyyətlərindən istifadə etməklə korrupsiya hüquqpozmasına yol verdiyinə görə səlahiyyətlərinə xitam verilib. Daha sonra Prezidentin sərəncamı ilə vaxtından əvvəl hakimlikdən azad olunub.

**İLTİFAT**

# Növbəti erməni həyasızlığı: "Qarabağı yalnız Ermənistan və Rusiyadan deyil, başqa ölkələrdən də turistlər ziyarət edə bilər"

**Gün keçdikcə Qarabağdakı ermənilərin həyasız açıqlamaları da artır. Onların sonuncu açıqlaması Qarabağda turist marşrutları tərtib etməyə və qonaqları qəbul etməyə davam etdiklərini bildiriblər.**

Adalet.az SputnikArmenia saytına istinadən xəbər verir ki, bunu Yerevanda keçirilən 8-ci Ermənistan-Rusiya Regionlararası Forumu zamanı qondarma Artsax respublikasının "Qarabağ Turizm İnkişafı Agentliyi"nin rəhbəri Sergey Şahverdyan söyləyib: "Respublika hakimiyyəti əvvəllər əsas sayılmayan turizm istiqamətlərini inkişaf etdirir. Amaras Monastırı ziyarət üçün tamamilə açıqdır və ümumiyyətlə, Qarabağı yalnız Ermənistan və Rusiyadan deyil, başqa ölkələrdən də turistlər ziyarət edə bilər ".



"Artsax iki mindən çox mədəniyyət abidəsini itirdi, bunların arasında turizm baxımından da əhəmiyyətli olan bir çox obyekt var idi. İndi biz əvvəllər daha az görünən, lakin indi ön plana çıxan istiqamətlər üzərində işləyirik. "Şahverdyan vurğulayıb.

**Qeyd edək ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunun bir hissəsində müvəqqəti olaraq yerləşən Rusiya sülhməramlıları nəzarəti altında olan ərazilərimizə qanununsuz, icazə alınmadan gələnlərin sayı artmaqdadır. Sonuncu dəfə - ötən ay Amaras monastrına ziyarət gələn erməni zəvvarların monastra "dqr" bayrağı sancması da qarşıdurmaya səbəb olmuşdu**

**Əntiqə Rəşid**

## *HƏMAS: İsraillə müharibə qaçılmaz olacaq*

**Fələstinin işğalı dayanmasa, İsrail dövləti ilə müharibə qaçılmaz olacaq.**

Bunu ”Skay Nyus”a müsahibəsində HƏMAS-ın rəsmi nümayəndəsi Qazi Həmad deyib.

”İsrailə qalib gələ, ona sarsıdıcı zərbə endirə bilərik. Onlar bizim torpaqları oğurlayıblar. Biz onların qurbanlarıyıq. Başa düşməlisiniz ki, bizim xalq işğal altındadır. Biz İsrailə güvənmirik və inanmırıq ki, bu ölkə sülhdə maraqlıdır”, - deyə o bildirib.

HƏMAS nümayəndəsi İsrail dövlətini tanımaqdan imtina etdiklərini söyləyib.

**MEHRİBAN**

## Hacı İlqar sərbəst buraxıldı



**Tanınmış ilahiyyatçı Hacı İlqar İbrahimoğlu sərbəst buraxılıb. Bu barədə İbrahimoğlunun özü məlumat verib.**

Qeyd edək ki, dünən Şirvan Apellyasiya Məhkəməsində Azərbaycan Ruhanilər Məclisinin (ARM) üzvü, Maide.Az saytının baş redaktoru Sərdar Hacıhəsənlinin məhkəməsində iştirak etmək üçün bu şəhərə getmiş Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzi (DEVAMM) sədri, İçərişəhər "Cümə" məscdinin imam-camaatı Hacı İlqar İbrahimoğlu və daha 3 nəfər Şirvanda saxlanılaraq polis bölməsinə aparılıb. İ.İbrahimoğlu şahid qismində dindirildikdən sonra gecə saatlarında sərbəst buraxılıb. O bildirib ki, xüsusi xidmət orqanında onunla çox peşəkar davranıblar və araşdırılan mövzu ilə bağlı sualları cavablandırıb.

**İLTİFAT**

## *Talibandan şok qərar - kamikadzelərin ailələrinə təqaüd veriləcək*

**Əfqanıstanda hakimiyyəti silah gücü ilə ələ keçirən Taliban rejiminin yeni qərarı dünyanı yenidən "həyacanlandırıb".**



Vaxtilə bu hərəkatın terror aksiyalarını həyata keçirən "canlı bombaları"nı "İslamın qəhrəmanları" elan edən Taliban rejimi onların ailələrinə hər ay 112 dollar məbləğində yardım, həmçinin geyim əşyaları veriləcəyini bəyan edib. "Fox News" -un xəbərinə görə, Talibanın rəsmisi Səid Xosti Hakkaninin "Twitter" -də səhifəsində verdiyi açıqlamada kamikadzelərin ailə üzvlərinə torpaq payı da veriləcəyini vurğulayıb.

## *Braziliya prezidentinin başı dərddə - kütləvi qırğında ittiham olunur*

**Braziliya Senatının Xüsusi Komissiyası prezident Jair Bolsonaru ilə bağlı araşdırmaya başlayıb.**

"Adalet.az" xarici KİV-ə istinadən xəbər verir ki, Senat ölkə başçısını pandemiya zamanı yol verdiyi səhvlərə görə 300 min vətəndaşın ölümündəı ittiham edib. Bu isə ölkədə koronavirusdan ölən 600 min vətəndaşın tən yarısı deməkdir. Komissiya prezidentin virusun ilk günlərindən yoxlanılmamış dərmanları reklam etməkdə, ölkəyə Pfizer və digər şirkətlərin dünya birliyi tərəfindən qəbul olunmuş vaksin partoyalarının gətirilməsini ləngitməkdə ittiham edir.



Xüsusi Komissiyanın hesabatını bu gün Senata təqdim etməsi və Jair Bolsonarunun həbsini təklif edəcəyi gözlənilir.

**İLTİFAT**

## *"Zəfər klubu"nun növbəti görüşü keçirilib*



**Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsinin qaliblərdinən biri olan Vətən Müharibəsi iştirakçısı, şair Emin Piri "Zəfər klubu" layihəsi çərçivəsində növbəti görüşü keçirib.**

Görüş Xızı rayonu Türkoba kənd ümumi orta məktəbində keçirilib. Görüş zamanı Vətən Müharibəsinin gerçək tərəflərindən danışılıb, "Zəfər klubu" haqqında məlumatlar verilib. Yaradıcı şagirdlərin hekayələrinin üzə çıxarılması barədə fikir mübadiləsi aparılıb.

**Cavid Piri**

## *Atmosferə normadan artıq zərərli qazlar atılır*

**Bu gün nəinki ölkəmizdə, dünyada atmosferə müxtəlif nəqliyyat vasitələrindən, istehsalat sahələrindən, inşa edilən tikintilərdən normadan artıq zərərli qazlar atılır. Bu isə insanların müxtəlif xəstəliklərə düçar olması deməkdir.**



Amma nə yaxşı ki, dünyada və ölkəmizdə atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün böyük işlər və layihələr həyata keçirilir. Həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi atmosferin çirklənməsinin qarşısını almaq üçün birgə fəaliyyət göstərirlər.

Məsələn, Dövlət Yol Polisi İdarəsinin avto-texniki müfəttişlik şöbəsinin əməkdaşları və eləcə də qurumun digər şöbələri hər ay atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün reydlər keçirir. Bu reydlər həm Bakı şəhərində, həm də regionlarda mütəmadi olaraq davam edir. Belə ki, atmosferi çirkləndirən nəqliyyat vasitələrinin sahibləri, istehsalat sahələrinin və tikinti təşkilatlarının məsul şəxsləri inzibati qaydada məsuliyyətə cəlb edirlər.

**Avto-texniki müfəttişlik şöbəsindən bizə bildirdilər ki, təbiətə və atmosferə atılan zərərli qazların qarşısının alınması üçün bundan sonra da mütəmadi olaraq tədbirlərin keçirilməsi nəzərdə tutulub və qanunu pozan heç bir fiziki, hüquqi və vəzifəli şəxslər yaxalarını məsuliyyətdən kənara çəkə bilməyəcəklər.**

**Emil FAİQOĞLU**

# Prezident qızı, prezident xanımı, İslam aləminin ilk qadın baş naziri: Qətlinin üstü açılmayan 3 uşaq anası

**Əziz oxucularım! Bu gün sizə İslam aləminin ilk qadın baş nazirindən söhbət açacağam**

Adalet.az xəbər verir ki, 1953-cü il iyunun 23 Pakistan Xalq Partiyasının lideri ( 3 il 1971-73 illərdə ölkənin 4-cü prezidenti olmuş) Zülfüqar Əli Bhuttonun ailəsində bir qız doğulur, adını Bənazir qoyurlar. Ailədə böyük uşaq idi. Zülfüqar qızını Avropa üslubunda tərbiyə edirdi: Benazir 12 yaşına qədəm qoyanda, müsəlman aləmində qəbul olunan qaydalardan fərqli olaraq çadra geyinmədi.

"12 yaşımda anam Nüsrət xanım başıma çadra örtdürəndə atam etiraz etdi ki, qoy qız böyüsün, üzü açıq və ya bağlı gəzmək qərarını özü versin. İslam qadınlara həyatlarını fikirləşdikləri kimi qurmağa icazə verir. Ondan sonra mən çadra örtmədim".

### *Təhsil və mübarizə*

***Hindistanın Şərqi Pakistana qoşun göndərdiyi və atasının Qərbi Pakistanın müdafiə naziri kimi BMT ilə təmas qurmaq üçün Nyu-Yorka getmək məcburiyyətində qaldığı 1971-ci ilə qədər Harvardda təhsil alırdı. Lakin daha sonra atasına kömək etmək üçün Nyu-Yorka köçdü. Oksforddakı təhsilindən sonra Pakistana döndü. İslam sosializmini müdafiə edən atası Zülfüqar Əli Bhutto 1979-cu ildə müxtəlif ittihamlarla edam edildi və Bənazir Bhutto ev həbsinə məhkum olundu. 1984-cü ildə ölkədən çıxışına icazə verildi, Bənazir Bhutto bundan sonra Böyük Britaniyaya köçdü və mühacirətdə Pakistan Xalq Partiyasına rəhbərlik etməyə davam etdi.***

Avropa və ABŞ-da yaşadığı illərdə qərb həyat tərzi sürdü və qadın hüquqlarını müdafiə etdi. Ölkəsindəki qadınlar üçün bir şeylər etmək istəyən və siyasi həyatına davam edən Bənazir Bhutto 1987-ci ildə sement zavodunun direktoru (2008-2013-cü illərdə Pakistanın 11-ci prezidenti olub) Asif Əli Zərdari ilə evləndi və bu evlilikdən üç övladı dünyaya gəldi.

1977-ci ildəki daxili qarışıqlıqdan sonra, 1988-ci ildə Pakistanda ilk dəfə azad seçki keçirildi və Bənazir Bhutto qalib gələrək müsəlman ölkənin ilk qadın baş naziri oldu. Amma qurduğu hökumət korrupsiya ittihamları ilə üz-üzə qaldı və təxminən iki il sonra yeni seçkilərin keçiriləcəyi səbəbiylə hərbi qüvvələr tərəfindən dəstəklənən Qulam İshaq Xan tərəfindən devrildi. İttihamlara baxmayaraq, Bənazir Bhutto barəsində heç bir hüquqi addım atılmadı.

### *Növbəti dəfə baş nazir: Bənazir*

***1993-cü ilin məhz bu günü Bənazir Bhutto yenidən baş nazir seçildi, lakin üç il sonra o və həyat yoldaşı korrupsiya ittihamı ilə prezident Fərrux Legari tərəfindən devrildi. Bənazir Bhutto və həyat yoldaşı Asif Əli Zərdariyə qarşı korrupsiya ittihamları heç vaxt hüquqi baxımdan təsdiqlənmədi.***

Bənazir Bhutto 1990-cı illərdə iki dəfə baş nazir seçildi. Lakin ordu korrupsiya ittihamları qarşısında qalan Bhuttoya heç vaxt etibar etmədi.

Milli islahatlar və qadın haqlarını ön planda tutması səbəbindən həmişə yeni ittihamlar qarşısında qalan Bənazir Bhutto siyasi gücünü itirməyə başlayan Pəncabdakı zəngin torpaq sahiblərinin hədəfi idi. Feodal nizamına qarşı mübarizə aparan bu cəsur qadın Pakistanın inkişafı və qadınların ictimai-siyasi həyatın bütün sferalarına daxil olmaları üçün mübarizə aparırdı.

1999-cu ildə Pərviz Müşərrəfin rəhbərlik etdiyi hərbi çevrilişdən sonra Pakistanı tərk edərək Dubayda yerləşdi.

Siyasi həyatına Dubayda davam etdi, ancaq Pərviz Müşərrəfin hədəfi olmaqdan qaça bilmədi. 2002-ci ildə B.Bhuttonu hədəf alan bir konstitusiya dəyişikliyi edildi. Dəyişikliyə görə, bir şəxs maksimum iki dəfə baş nazir seçilə bilərdi. 2007-ci ildə yenidən baş nazir seçilmək ehtimalı yarananda Pakistana qayıtmaq istədi, ancaq situasiya o qədər də əlverişli deyildi. Bənazir Bhutto "Əl-Qaidə"nin təhdidlərinə və ətrafının xəbərdarlıqlarına baxmayaraq Pakistana qayıtdı.

### *Ölümün üstünə yüyürmək*

Bhutto Pakistana qayıdışına etiraz edənlərə bu cavabı vermişdi:

***"2007-ci ildə Pakistanda məni gözləyən qeyri-müəyyən bir gələcəyə qayıtmağa hazırlaşıram. Yalnız özüm və ölkəm üçün deyil, bütün dünya üçün olan təhlükələri çox yaxşı bilirəm. Düşünürəm ki, həbs oluna bilərəm. Bilirəm ki, qayıdanda hava limanının enmə zolağında məni vura bilərlər. Hər şeydən əvvəl "Əl-Qaidə" neçə dəfə məni öldürməyə cəhd edib. Niyə bu qədər nifrət etdikləri demokratik seçkilər üçün qayıdanda, yenə də buna cəhd etməsinlər?! Ancaq etməli olduğumu edəcəyəm və Pakistan xalqının demokratiya həsrətini bölüşmək üçün onlarla birlikdə olmaq vədini yerinə yetirərək, ölkəmə qayıtmağa qərarlıyam. Bu riski bütün Pakistan uşaqları üçün gözə alıram".***







Bənazir xanım səkkiz illik mühacirətdən sonra - 2007-ci il oktyabrın 18-də Pakistana qayıtdı və tərəfdarları tərəfindən böyük coşqu ilə qarşılandı. Elə həmin gün bir silahlı hücumun hədəfi oldu. Bənazir Bhuttonun yarasız qurtulduğu hücumda 138 nəfər həyatını itirdi, 248 nəfər yaralandı.

Lakin 2007-ci il dekabrın 27-də Ravalpindidəki seçki mitinqində 15 yaşlı kamikadze tərəfindən öldürüldü. Bir müsəlman ölkəsini idarə edən ilk qadının həyatına Bilal adlı 15 yaşlı kamikadze son qoydu.

Bhuttonun ölümü üçüncü dəfə baş nazir olmaq istədiyi zaman baş vermişdi. Onun öldürülməsi Pakistanda kütləvi vətəndaş itaətsizliyinə yol açdı.

Bhuttonun tərəfdarları küçələrə çıxdı, yolları bağladı, şəhərləri yandırdı və Pakistan hakimiyyəti əleyhinə şüarlar səsləndirdilər. Bənazir Bhuttonun oğlu və siyasi varisi Bilaval isə hələ də anasının qətlində Müşərrəfi günahkar hesab edir: "Müşərrəf anamın öldürülməsi üçün bütün vəziyyətdən sui-istifadə etdi. Təhlükəsizliyini qəsdən sabotaj etdi ki, öldürülərək siyasi səhnədən silinsin". Hadisədən on il sonra Pakistan Talibanının liderlərindən biri Əbu Mənsur Asim Müfti Nur Vəli kitabında Bənazir Bhuttoya qarşı həyata keçirilən sui-qəsdin məsuliyyətini təşkilatının üzərinə götürdüyünü yazdı. 15 yaşlı Bilalı Bhuttoya çatdıran iki şəxs 2008-ci il yanvarın 15-də qətlə yetirildi.

Bhuttonun mühafizəçilərindən biri Xalid Şahənşah 2008-ci il iyulun 22-də Kəraçidəki evinin qarşısında öldürüldü. Bhuttonun işini araşdıran prokuror Çoudxuri Zülfüqar Əli 2013-cü ildə İslamabaddakı evinin qarşısında odlu silahdan açılan atəş nəticəsində həyatını itirdi. İddiaya görə, Zülfüqar ölümündən əvvəl dostlarına Bhutto məsələsində yeni faktlar əldə etdiyini demişdi.

### *"Şəhid Benazir Bhutto" mükafat*

**Şahidlərin dediyinə görə, Bhutto daim Azərbaycana xüsusi münasibət bəsləmiş, ölkəmizin ədalətli mövqeyini dəstəkləmişdi. Pakistanın Baş naziri olduğu dövrdə Pakistan Azərbaycana mənəvi dəstək verməklə yanaşı, işğal olunmuş torpaqlardan didərgin düşmüş insanlara bir milyon ABŞ dolları məbləğində humanitar yardım edilmişdi. Həmin yardım tibbi ləvazimatlar, qida məhsulları və geyim əşyalardan ibarət olmuşdu. irimiqyaslı humanitar layihələri həyata keçirtdiyinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya "Şəhid Benazir Bhutto" adına mükafatı verilmişdi. Sözügedən mükafat B.Bhuttonun həyat yoldaşı, Pakistanın sabiq Prezidenti Z.Ə. Zerdari tərəfindən təqdim olunmuşdu".**

**Əntiqə Rəşid**



*Fəxrəddin Teyyub*

# Türkün qan yaddaşı

## *Adil Cəmilin "Manas" dastan-poemasını oxuyandan sonra*

*Tanrım, qələm tutan əlimə güc ver,*
*Sözün sarayına xoş səfərim var.*
*Mənə qiymət versən beş vermə, üç ver,*
*Hələ nə uğurum, nə zəfərim var.*

*Səndən hədiyyədi, paydı ömür-gün,*
*Sevgindən ocaqlar qalana gərək.*
*Sənin dərgahına yetişmək üçün,*
*Savabım savaba calana gərək.*

*Adını çəkirəm hər şeirimdə mən,*
*Duyğumdan küsərəm həzin olmasa.*
*Görürəm mehrini göydə, yerdə mən,*
*Söz bitməz dən kimi iznin olmasa.*

*Ümidsiz, çarəsiz xəstə görmüşəm,*
*Sonda sən olmusan diləyi, Allah.*
*Xəstənin başının üstə görmüşəm,*
*Cana şəfa verən mələyi, Allah.*

*Əlini götürsən dünya dağılar,*
*Çiynində yer alıb aləm, bilirəm.*
*Sevgindən ürəyi dönüb dağ olar,*
*Sənin ətəyini qibləm bilirəm.*

*Mənə icazə ver təbimi seçim,*
*Alnımdan axan tər naz eyləməsin.*
*Söz ki var saf sudu versin bir içim,*
*Mənə qulluğunu az eyləməsin.*

*Uzaqdan görünür ömrün qürubu,*
*Qarşımda keçilməz neçə dərə, dağ.*
*Bəlkə də ömrümdə bir sınaqdı bu,*
*Çıxart sınağından məni üzü ağ.*

*Günəşsiz dan yeri yenə sökülər,*
*Sevgiylə alışan bir şamın olsa.*
*Qələmin ucundan inci tökülər,*
*Ruhunda şəlalə, ilhamın olsa.*

*Hələ çırpılmayıb arzum bir daşa,*
*Açılsın qırğızın səxavət əli.*
*Ucalsın Manasla yanaşı, qoşa,*
*Adil Cəmilin də məğrur heykəli.*

*Manası düşünüb yad eylədin ki,*
*Payına min qoyun, dəvə, at düşür.*
*Sən elə ruhunu şad eylədin ki,*
*Sənə ər Manasdan mükafat düşür.*

*Mən deyə bilmərəm, yerimdə saydım,*
*Görmüşəm keçilməz divar dünyada.*
*Bəlkə də "Manas"ı oxumasaydım,*
*Hələ də bilməzdim nə var dünyada.*

*Vətəni sevənin qolu uzanar,*
*Şəhidin zəhməti getmədi hədər.*
*Türkün həsrətinin yolu uzanar,*
*Xudafərindən ta Altaya qədər.*

*Qeyrətim uyuyur torpaq altında,*
*Hər şəhid paltarı libasımızdı.*
*Oğullar var imiş papaq altında,*
*Ali Baş Komandan Manasımızdı.*

*Elə bil təzədən doğuluram mən,*
*Gərək uğur üçün tər tökə adam.*
*Bir sirr dənizində boğuluram mən,*
*Necə çiyin verər, bu yükə adam?*

*Mənim dövlətimdi səmimiyyətim,*
*Ürəkdən deyirəm sözümə, inan.*
*"Manas"ı yaymaqdı arzum, niyyətim,*
*Heyranam səndəki dözümə, inan.*

*Yatmaram, kiminsə uğuru olsa,*
*Sevincə bələnnəm, bala bataram.*
*Qəlbimə bir damla paxıllıq dolsa,*
*Köksümdən qoparıb itə ataram.*

*Damarda qan coşdu yurd həvəsindən,*
*Neçə ev dağıldı, uçan dam oldu.*
*Yer gəldi lərzəyə türkün səsindən,*
*Vətən qırx dörd günə bütöv, tam oldu.*

*Qayıdar yurduma yenə o çağlar,*
*Çoxdan marıqdaydı buyruq yiyəsi.*
*Alışdı təzədən sönən ocaqlar,*
*Qalib gəldi Dəmir yumruq yiyəsi.*

*Ümid solumdadı, arzu sağımda,*
*Nə olsun, işimi min əyənim var.*
*Atıldım səngərə gənclik çağımda,*
*Demədim mənim də gözləyənim var.*

*Görməyə kiməsə savab iş versin,*
*Dönmərəm fikrimdə, qətiyəm, qəti.*
*Qoy təhsil naziri göstəriş versin,*
*Hərbdə "Manas" olsun dərs vəsaiti.*

*Oxuyun, hamının gələr həvəsi,*
*Nə qınaq, nə də ki, sərgi olacaq.*
*"Manas"ı oxumaq istəyən kəsin,*
*Qazancı özünün dərki olacaq.*

*Fikir yağışında duyğumu yudum,*
*Ətirli misralar məst edər məni.*
*"Manas"dan aldığım atəşim, odum,*
*Nə qədər ömrüm var isidər məni.*

*Demirəm ki, Aydan gətirrəm soraq,*
*Yerdən də, göydən də bir az halıyam.*
*Deyirəm, taleyin işinə bir bax,*
*Demə "Manas"ı oxumalıyam.*

*Kitab oxuyardım hər səhər, axşam,*
*Gözləri gülərdi əziz anamın.*
*"Manas"a bir gözəl yer ayırmışam,*
*Təzə sakinidi kitabxanamın.*

*Görən düzü əyən kimin əlidi,*
*Düzələ bilmirik axı, biz nədən?*
*"Mən" sözü lüğətdən silinməlidi,*
*Qoy hamı "biz" desin candan, ürəkdən.*

*Doğman özünə yox, yada yarısa,*
*Elə bil sinənə bir dağ basılar.*
*Qeyrət bulağının suyu qurusa,*
*Vətən dara düşər, torpaq basılar.*

*İşim dərindən yox, dayazdan keçər,*
*Yaxşı da, yaman da əlbir olanda.*
*Söz gərək yeyilə, boğazdan keçə,*
*Nə var dağ çapmağa el bir olanda.*

*İsti ocağım tək ocaq tapılmaz,*
*Neftimiz, qazımız göz dağı kimi.*
*Dünyanı gəzsəniz qucaq tapılmaz,*
*Bu ana vətənin qucağı kimi.*

*Əsgərin uğuru şəkər, baldı ki,*
*Qələbə eşqiylə döyünür ürək.*
*Bu savab hər kəsə başa saldı ki,*
*Vətəni, torpağı sevəsən gərək.*

*Yaralı yarğanlar xəyala dalıb,*
*Şükür, üzü güldü Qarabağın da.*
*Mənim neçə-neçə xatirəm qalıb,*
*Ağdamın vüqarı Fərrux dağında.*

*Bir özgə halını öz halın kimi,*
*Şair gecə-gündüz sözdən güc alar.*
*Səslənir atalar misalı kimi,*
*Özgəni ucaldan özu ucalar.*

*Adı yad diyarda hallanan kəsin,*
*Uğuru bədxaha göz dağı olar.*
*Bir istək dalınca yollanan kəsin,*
*Tanrı da köməyi, dayağı olar.*

*Yolunu azana məhək daşıdı,*
*Düşmənə zəhər tək acıdı "Manas".*
*Türkün bu dünyada qan yaddaşıdı,*
*Qırğızın başının tacıdı "Manas".*

*Bayağı sözlərdən bezirəm bəzən,*
*Xoş sözlər eşidə qulaq, deyirəm.*
*Bir misra görmədim ruhumu əzə,*
*Mən qaynar təbinə bulaq deyirəm.*

*Susmasın ilhamın çağlayan səsi,*
*Söz gərək atlana varaq atına.*
*Bir oğul gəzirəm, təqdim eyləsin,*
*"Manas"ı qoy dövlət mükafatına.*

***10-17 oktyabr, 2021-ci il.***

*Rəsmiyyə Heybətağaqızı*



## *XUDAYAR TƏSNİFİ*

*Döndün bu millətin qəhrəmanına,*
*Gülüşün bəzədi eli, obanı.*
*Boyadın düşməni qızıl qanına,*
*Sən qurban eylədin Vətənə canı.*



*Oxuduğun təsnif kövrəltdi bizi,*
*Döndün əfsanəyə sən gülə-gülə.*
*Ölümün sızlatdı ürəyimizi,*
*Sən Vətən bağında döndün bülbülə.*

*Necə gözəl dedin: - "Vətən yaxşıdır",*
*Qoşuldun göylərdə mələklərə sən.*
*Hər şəhid Vətənin vətəndaşıdır,*
*Sığışa bilmədin göyə, yerə sən.*

*Səni sevənlərə yoxluğun dağdı,*
*Xudayar deyəndə dil-dodaq yanır.*
*Siz şəhid oğullar, üzünüz ağdır,*
*Ruhunuz hər səhər nura boyanır.*

*Göylər yas saxlayır, yer köks ötürür,*
*Səni sevənlərin qəlbindəsən sən.*
*Tanrı bu həsrəti necə götürür,*
*İndi dodaqlarda dinən nəğməsən.*

*Ölümün gözünə dik baxdın, qardaş,*
*Bir şərəf gətirdin ana Vətənə.*
*Qana boyansa da bu torpaq, bu daş,*
*Göylər məhəbbətlə baş əydi sənə.*

# Poeziya yükünə çiyin verənlərdən biri - Ayaz Arabaçı



*Zakir Məmməd*

**Şeir sənəti ona görə yaşayır ki, onu yaradanların dili, istedadı, ifadə imkanları müxtəlifdir. Bu müxtəlifliyi doğuran səbəblər ədəbiyyatın, poeziyanın ömrünü təşkil edir, Füzuli demişkən, bədii sözü həmişə diri saxlayır. Bu üzdən dünyaya - şeirə Sabir gəlir, Cavid, Puşkin, Nazim Hikmət gəlir, ədəbiyyat tərəqqi edir, yeni üslub və yazı metodikasına həssas ədəbi sürəc formalaşır. Həyatın nəbzini yoxlamağa, şüura nəzarət etməyə, dünyanı "ovcunun içində" görməyə, gözdən keçirməyə və "acların" qarnını doyurmağa yeni siyasi, ekonomik proqramların işlənib hazırlanması üzrə uzmanların görə biləcəyi işləri sosial platformada ədəbiyyatın iştirakı ilə həyata keçirmək keçmişin təcrübəsi olaraq bu gün də aktualdır. Şüura elmlə birlikdə sənətə aid olan bilgilər əlavə edilməlidir ki, toplum "cızığından çıxmasın".**

Ədəbi düşüncə və probleme poetik yanaşma siyasi-iqtisadi nəzarətin özünə nəzarəti həyata keçirmək üçün cəmiyyətə həmişə lazımdır. Bir şərtlə ki, sözümün əvvəlində yazdığım kimi, bu vəzifəni istedadlı adamlar görməlidirlər. Şair Ayaz Arabaçı demişkən: "Adamın dili var, dilin adamı". Yəni dil dediyimiz nəsnə adamladır, ya adam deyilən şey dillədir. Burada "dil" də, "adam" da çoxmənalı anlayış kimi də, konkret olaraq üslub və sənətkarlıq problemi kimi də oxuna, qəbul edilə bilər. Elə Ayaz Arabaçı da konseptual bir dilin, estetikanın adamlarından biri kimi, bu günkü söhbətimin mövzusu olsun gərək. Ayaz bəy, necə ki bu məqalənin giriş hissəsində vurğuladım, üzərinə düşənləri namusla yerinə yetirən sənət adamıdır. Ayrı cür desək, dilin adamıdır. Bu adamın dili var deyə cəsarəti də var. Cəsarəti var deyə qələmi də var. Yazarın seçilən, heç kəsə bənzəməyən dili həm də onun cəsarətidir. Mən cəsarət deyərkən, M.Arazın bir sözünü xatırlatmaq istəyirəm: "Anamdan, bacımdan gizlətdiyimi Kağızdan, qələmdən gizlətməmişəm". Professor Yaşar Qarayevin təbirincə desək, "cəsarət sərvətdir". Ayaz Arabaçının poeziyası heç zaman tükənməyən sərvətimizdir. O, ictimai poeziyanın miqyasını genişləndirib, hecada satirik təfəkkürün səviyyəsini yüksəldib. A.Arabaçının "2?2=" şeiri ən gözəl vətən şeiridir və "Əhsən bizə! Həm tirzəniz, həm hədəfiz biz!!! Öz qövmümüzün başına əngəlkələfiz biz!" misralarının müəllifi böyük M.Ə.Sabirin "Fəxriyyə"si ilə eyni siyasi-poetik çəkiyə malikdir.

*"Arxivində qalaq-qalaq paxırlar,*
*Bulaqların hansı səmtə axırlar,*
*Sənə sağmal inək kimi baxırlar,*
*Bax bu adım Ayaz haqqı, ay vətən".*

Ayaz bəyin şeiriyyətinin dadlılığı-duzluluğu onun qələminin ümumxalq dilinin genişliyindən calaq olmağıdır. Onun hər kəlməsi necə deyərlər, iti selbə tutan kimi tutur.

Onun topluma mesajları sızıltılı, ahuflu deyil, ağayanadır. Onun üslubunda daxili kübarlıq, təmkin və ləyaqət kök salıbdır. Onun ironiyasında nifrət hissi yox, şəfa diləyi var. Olaya ümumi yanaşmaqla xırda duyğudan, qrup marağından uzaq qalmaq mümkündür. Bizim milli ədəbiyyatda tək-tək adamlardan qisas almaq üçün bir neçə abzas, bəzən daha çox vaxt sərf edən yazıçılarla rastlaşıram. Bu baxımdan Ayaz Arabaçı vaxtın, gələcəyin, bəşəri ünsiyyətin, tarixi gerçəkliklərin şairi olmağı bacarır. Adlar, şöhrətlər belə şairlərin dizindən aşağıdır. Bir şeirində o yazır:

*"Allah imkan versə, yaxşı tərəfdən*
*Bu il mən olacam ilin adamı".*

Bu misraların yazılmasından xeyli vaxt keçsə də, ədəbi prosesi körükləmək üçün, əslində, təltif kimi düşünülən "ilin adamı" olmağa, fikrimcə, yenə Ayaz Arabaçı layiqdir. Hərçənd misal çəkdiyim misraların bətnində fikrin bir neçə cür çalarına uyğun şərh vermək mümkündür.



Çünki iki misrasını nümunə etdiyim həmin şeirdə şair ədəbi aləmdə vurnuxanların, şöhrətə uyanların əməllərinə də diqqət çəkir. Bu illər ərzində ölkədə böyük olaylar baş verib, Şuşa düşmən işğalından azad edilib, qırx dörd günlük hərb zamanı ədəbiyyatımız öz "cəbbəxanası" ilə böyük ehtiyatlara malik olduğunu göstərib. İgidin yaraşığı olan həmin ehtiyatı ikinci Qarabağ savaşında, o ərəfədə Lələtəpə uğrundakı döyüşlərdə sərf edən ən birinci şairimiz Ayaz Arabaçı olubdur. Bu qanlı döyüşlərdən xeyli əvvəl A.Arabaçı yazırdı:

*"Şair gərək şərəf kimi baxsın həyata,*
*Qılınc olsun, nizə olsun qələm əlində.*
*Şair gərək tamam dönsün mənəviyyata,*
*Həm işində, həm sözündə, həm əməlində".*

Azərbaycanın ərazisini işğaldan azad etdiyimiz həmin döyüşlərin iştirakçısı olmaq üçün şairin hər hansı mücadiləyə, mübarizəyə ta əvvəldən hazır olması lazımdır.

Bu misraların mahiyyətində sənət adamının ən vacib göstəriciləri əks olunubdur. Ayaz Arabaçının yazdıqları hər zaman ona görə yeni səslənir ki, onun qələminin məqsədlərində şərəf, namus məsələləri başda gəlir. Bax buna görə A.Arabaçı kimi şairlərin qələmi üçün xalq, toplum kamerton rolunu oynayır. Zatən keçmişdə də, indi də xalqı, oxucunu ayaqda saxlayan, ona ruh və güvənc gətirən onun "halına mizrabzən olan" ədəbiyyatdır. Yoxsa Vətən müharibəsi zamanı aşağdakı misralara ehtiyac duymazdıq:

*"Burnu ovulubdu ermənilərin,*
*Qoy yazsın bunu da"Təbəri", Vətən.*
*Torpağa can verən yağış kimidi,*
*Bu günkü qələbə xəbəri, Vətən".*

Burada böyük sənətə xas ilhamla ölkənin, dövlətin halına uyğun fikirlər poetik vüsət qazanıbdır.

Birinci iki misrada sorunun ciddiliyi, sonrakı misralarda insanın durumu ifadə olunubdur. "Təbəri" kəlməsi böyük bir mücadiləni, cihadı yada salmaq üçün, indi baş verənlərin tarixin ən səs-küylü hərəkatları ilə müqayisəsi məqsədilə işlədilmişdir.

Şeirin doğurduğu hiss hər bir azərbaycanlının duyduqları ilə üst-üstə düşür və adamı razı salır.

Ümumilikdə ikinci savaş zamanında və otuz illik işğal ərzində Qarabağın əhvalını şairlərin necə qələmə alması tarixin problemi kimi qəbul edilməlidir. Çünki siaysi tarixin bir qolu həmişə şairin çiynindədir və vaxtilə Q.Zakirin yazdıqlarından da Qarabağın əhvalı haqqında ən səhih bilgiləri əldə etmişik. Fəqət bu işi o şəxslər gərək görə ki, orden,medal gözləntisi ona yad olsun. "Nə yağlıq, nə ballıq heç nə yazmıram, Ordenlik-medallıq heç nə yazmıram". Bir də ki, şairin o sözü yazmağa qüdrəti çatmalıdır. Bu baxımdan, A.Arabaçı Qarabağın əhvalını hər dəfə düzgün anladır və zövqlə anladır.

*"Mən susmuşam söz tapmıram deməyə,*
*Acılarım gözüyaşlı danışır.*
*Qarabağda adam kimi dil açıb,*
*Vətən bu gün dağlı-daşlı danışır.*
*Çox ağırdı, təslimçilik şərtləri,*
*Dərd götürüb, şir biləkli mərdləri,*
*Qarabağın qara-qara dərdləri,*
*Qaragözlü, qaraqaşlı danışır".*

**Qarabağ probleminin həllinə məsul beynəlxalq siyasi qüvvələr bizi hər zaman dağa-daşa salmaqla məşğul olublar. Metonimik ifadə üsulu ilə seçilən şair "problem" dalınca gəlib-gedən "beş düşüy"ün (A.A.) qara gözümüzə, qara qaşımıza "aşiqliyinin" dərin səbəblərinə işarə edir. Hər halda ön xətdə olaylar necə çalxanıb-bulansa da, bir gün sular durulur, "təmas xətləri" ayrı səmtdə müəyyənləşir. Lakin tarix təkcə tarix kitablarında deyil, ədəbi mətnlərdə qorunub saxlanır. Bədii söz təkcə təsvir etmir, müqayisələr, bənzətmələrdən ötrü baş sındırmır, bədii söz hissə, duyğuya çökür və yaddaşı bütövləşdirir. Şair Qarabağ probleminin həlli konsepsiyasını daha anlamlı fəhm edir. Çünki bədii sözün gücündə el gücü, el müdrikliyi, uzaqgörənliyi var.**

**(ardı növbəti sayımızda)**

*Yeni kitablar*

# "NİZAMİ LİRİKASI VƏ ..."




**Dahi şair və mütəfəkkir Nizami Gəncəvi dünya şöhrətli "Xəmsə"si ilə bərabər lirik şerlər divanı ilə də məşhurdur. Şairin lirik şerləri qəsidə, qəzəl, rübai janrlarında yazılmışdır. Nizami Gəncəvi epik şer sahəsində misilsiz olduğu kimi, lirik bir şair kimi də böyük sənətkardır.**

AMEA Gəncə Bölməsində nəşr edilən "Nizami lirikası və..." kitabında dahi şairin lirik yaradıcılığından söhbət açılır. Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunan kitabın elmi rəhbəri və ön sözün müəllifi professor Xəlil Yusifli, elmi redaktoru Afaq Yusiflidir. Nizami Gəncəvinin lirik şerlərinin tədqiqinə həsr edilmiş "Nizami lirikası və..." adlı monoqrafiya ilk dəfə 1968-ci ildə nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən 2021-ci ilin "Nizami ili" elan olunması ilə əlaqədar yenidən nəşr edilən kitaba müəllifin müxtəlif dövrlərdə dahi şairin həyatının tədqiqi ilə bağlı yazdığı məqalələri də əlavə edilmişdir. Nizaminin lirik şeirləri, əlbəttə bütöv bir tarixi dövrün aynası olan "Xəmsə" qədər şöhrət qazanmamış, onun qədər yayılmamış, onun kimi bütövlüklə gəlib bizə çatmamışdır. Lakin hazırda şairin lirikasından əldə olan nümunələr göstərir ki, Nizami bu sahədə də ən qüdrətli şairlərdən biri olmuş, yaradıcılığının əvvəlindən axırına qədər çoxlu miqdarda lirik şeirlər yazıb yaratmışdır. Əslində böyük şair yaradıcılığa lirika ilə başlamış, öz lirik əsərləri ilə qüdrətli bir sənətkar kimi tanındıqdan sonra yaradıcılıq meydanını genişləndirmiş, lirik və epik ünsürlərin sıx vəhdətindən yaranmış olan, həmçinin daəa böyük lövhələr, zəngin fikirlər ifadə etməyə imkan verən poemalarını yazmışdır. Böyük şair poemaları ilə yanaşı bütün yaradıcılığı dövründə lirik şeirlər yazmaqda davam etmiş, hətta öz yaradıcılığına Azərbaycan lirik poeziyasının ən gözəl nümunələrindən olan məşhur "Qocalıq" şeiri ilə yekun vurmuşdur. Nizami lirik şeir sahəsindəki bu fəaliyyətinə "Xəmsə"də dəfələrlə işarə etmişdir. Nizami öz lirik şeirlərini poemaları ilə yanaşı qoyur, onları bir-birindən ayırmır, həm qəzəl, həm qəsidə, həm də "qissə" şəkillərində öz fikir və duyğularını ifadə etmək üçün eyni dərəcədə istifadə etdiyini bildirir və bununla da, onun lirik şeirlərini "Xəmsə"dən zəif hesab edən, yaxud "Xəmsə"yə əlavə hesab edən hər cür fikirləri özü rədd edir. Kitab Nizami lirikasının ideya-bədii xüsusiyyətləri, "Xəmsə"də lirik ünsürlər və ricətlər, Nizami lirikasının özündən sonrakı yaxın Şərq ədəbiyyatına təsi, yaxıd Nizaminin lirik şerlərinə yazılmış cavablar tədqiq və şərh olunmaqla 4 fəsildən ibarətdir. Bundan başqa kitabda Nizamiyə ünvanlanmış məktublar və Nizami haqqında yazılmış məqalələr də yer alır. Nizaminin əldə olan lirik əsərləri göstərir ki, o, özündən əvvəl yazıb yaratmış Rudəki, Nasir Xosrov Qubadyani, Sənai, Ənvəri, Qətran Təbrizi, Xaqani kimi şairlərin mütərəqqi ənənələrini davam və inkişaf etdirmiş, poeziyanı həyata, insanın arzu və əməllərinə yaxınlaşdırmışdır. Nizami lirikasının öyrənilməsi və nəşri sahəsində indiyə qədər bir sıra sovet və xarici ölkə alimləri tərəfindən xeyli iş görülmüş, lakin böyük şairin lirik əsərləri hələ də geniş elmi təhlildən keçirilməmiş, onun özündən əvvəlki farsdilli şeirlə əlaqəsi, sonrakı dövrlərin lirikasına təsiri layiqincə öyrənilməmişdir.

**Nizami lirikasını elmi cəhətdən daha geniş surətdə təhlil etmək Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran mühüm vəzifələrdən biridir. Yeni kitab bu sahədə çox sanballı töhfədir.**

**Vaqif TANRIVERDİYEV**
**Gəncə**

# 75 yaşında gənc qızlardan seçilməyən Ajda Pekkan: Onun yeni fotosessiyası şok etdi

**Ötən ilin elə bu günündə məşhur türkiyəli sənətçi Ajda Pekkan belə bir açıqlama gəldi: "Azərbaycan Müdafiə Nazirliyinə dörd yüz min dollar göndərdim. Azərbaycan üçün canımız fəda olsun".**

Bəli, bu sevilən müğənni Azərbaycan Silahlı Qüvvələr Fonduna ianə bağışladı.

Bu günlərdə 75 yaşlı Ajda Pekkan yeni albomu üçün fotosessiya etdirib.

Qocalmaq bilməyən ulduzun iddialı şəkilləri ölkə musiqisevərləri arasında gündəmə çevrilib.



"Ajda" adlanan yeni albom üçün çəkilmiş fotoların müəllifi Safa Gürsoydur. Qeyd edək ki türk pop musiqisinin əfsanəsi olan Ajda Pekkan 1946-cı il 12 fevralda İstanbulda dünyaya gəlib. Atası Ridvan Hayri orduda dəniz qüvvələrində mayor, anası Gültən Nevin Dobrucada ev xanımı olub. Çamlıcada Qızlar litseyində təhsil alan Ajda musiqi uğruna təhsilini yarımçıq qoyub. Həyatı çətinliklərlə keçən Ajdanın ilk kədəri, ilk üzüntüsü valideynlərinin boşanması olub. O, kədərli anlarını heç vaxt unutmur. "Valideynlərim ayrılanda çox üzüldüm. Sanki bir boşluqda yaşayırdım və bu boşluğu musiqi ilə doldurmağa başladım. Ata-ananın boşanma acısını musiqi ilə təsəlli etməyə çalışdım. 1961-ci ildə İlham Gənclər Orkestrında solist kimi fəaliyyətə başladım, bu günlərimə dırnaqlarımla yer qazaraq gəlib çıxmışam".

Ajda Pekkan 1963-cü ildə "Səs" jurnalının təşkil etdiyi yarışmanın qalibi olduqdan sonra kino sənətinə ilk addımını atıb. İlk öncə "Şipsevdi", sonra "Adanalı Tayfur" (1963), "Sevdalı Kabadayı" ( 1964), "Tacsız Kral" ( 1965) , "Ayrılıq Şarkısı" (1966) kimi filmlərdə rol alıb.

**Əntiqə**

# "Milan"dan antirekord



***"Milan" yeni antirekorda imza atıb. Qol.az xəbər verir ki, bu, Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda "Portu"ya uduzmaqla (0:1) qeydə alınıb. Beləliklə "Milan" qrup mərhələsində ardıcıl 3 oyunda məğlub olub. Komanda əvvəlki turlarda "Liverpul" (2:3) və "Atletiko"ya (1:2) uduzub.***

***Bu da "Milan" tarixinin antirekordu hesab edilir.***

***Qeyd edək ki, "Milan" 7 illik fasilədən sonra bu il yenidən Çempionlar Liqasının qrup mərhələsində oynamaq hüququ qazanıb.***

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi tanınmış jurnalist **Elnur Əşrəfoğlunun** vəfatından kədərləndiklərini bildirir və dərin huznlə başsağlığı verirlər.

Hüsniyyə Zülfüqarqızı **Qəhrəman Abdullayevə və Kifayət Qəhrəmanqızına** əzizləri **Abdullayeva Fəridə Heybət qızının** vəfatından kədərləndiklərini bildirir, doğmalarına dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 132**
Çapa imzalanmışdır:
20.10.2021